RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 161 (8477) BAZAR, 16 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycanda uğurlu sosial siyasət yürüdülür

Dünyanın hər yerində ciddi fəsadlara yol açan koronavirus infeksiyası tək insanların sağlamlığı üçün təhlükə yaratmadı. İndiyə kimi bütün planeti əhatə etməklə 20 milyona yaxın insanın yoluxmasına, 700 mindən artıq insanın ölümünə səbəb olan xəstəlik həm də hər yerdə iqtisadiyyata zərbə vurub, sosial rifahın aşağı düşməsinə səbəb olub.

## İlham ƏLİYEV: “Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”

### 5 milyona yaxın vətəndaşı əhatə edən sosial dəstək tədbirləri

Virus Azərbaycandan da yan ötmədi. Lakin xəstəliyin ilk qeydə alındığı fevral ayının sonunda həyata keçirilən qabaqlayıcı tədbirlər sonrakı dövrdə mümkün ciddi təhlükələrin qarşısını aldı. Xüsusən həmin vaxt Avropa ölkələrində yaşanan faciələr Azərbaycanda baş vermədi. Həmin vaxt ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlər beynəlxalq səviyyədə də təqdir edildi, Azərbaycan bütün dünyaya nümunə olaraq göstərildi.

Təbii ki, pandemiya səbəbindən Azərbaycanda da iqtisadi fəallıq əvvəlki aylara nisbətən azaldı ki, bunun da sosial sferaya təsiri qaçılmaz idi. Bu reallığı ilk gündən düzgün dəyərləndirən Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifələrdən biri əhalinin sosial rifahının qorunması idi. Təsadüfi deyil ki, dövlət başçısının 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 12 tədbir əksini tapdı. Aprelin 17-də isə Prezident tərəfindən elan edilən yeni dəstək tədbirləri ilə bu məqsədlər üçün 600 milyon manat vəsait ayrıldı. Ötən dövrdə sosial məsələlərlə bağlı görülən tədbirlərə nəzər salaq:

- *Dövlət sektorunda 910 min işçidən karantin dövründə təxminən 80 faizi işə çıxmasa da, onların əməkhaqları ödənildi;*
- *Özəl sektorda pandemiyadan zərər çəkmiş sahələrdə işləyən 600 min nəfərə dövlət dəstəyinin göstərilməsi tapşırığı verildi və artıq 320 min şəxs bu dəstəkdən yararlanıb;*
- *2 milyon vətəndaşa sosial təminat növləri (pensiya, təqaüd, müavinət) üzrə ödənişlərin davamlılığı təmin edildi;*
- *Aprel-may aylarında 600 minədək, iyul ayında 16 rayon və şəhər üzrə 290 minə yaxın aztəminatlı işsiz şəxsi əhatə edən aylıq 190 manat birdəfəlik ödəmə proqramı icra edildi;*
- *Məşğulluq imkanlarının artırılması üçün ödənişli ictimai iş yerlərinin sayı 90 minə çatdırıldı, artıq 65 min insan əmək müqaviləsi ilə bu işlərə cəlb olunub;*
- *Özünüməşğulluq proqramı çərçivəsində minimum 12 min ailədə (50 min ailə üzvü) kiçik təsərrüfatların qurulması işləri aparılır;*
- *85 min ailənin 350 mindən çox üzvü ünvanlı dövlət sosial yardımı ilə təmin olunur;*
- *100 minədək aztəminatlı ailə (400 min ailə üzvü) ərzaq yardımı ilə təmin edildi;*
- *20 minədək şəxsin işsizlikdən sığorta ödənişi ilə əhatə olunması işləri aparılır.*

Ümumilikdə, Tədbirlər Planı üzrə ayrılan vəsait təqribən 3,5 milyard manatdır. Pandemiya ilə əlaqədar sosial dəstək tədbirləri təqribən 5 milyona yaxın vətəndaşı əhatə edir. Onu da qeyd edək ki, sərt karantin rejimi tətbiq edilən 13 şəhər və rayonda işsiz vətəndaşlara avqust ayında da 190 manat müavinət ödəniləcək. Avqustun 6-da ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilən müşavirədə Prezident İlham Əliyev bununla bağlı göstəriş verdi. *“Bu, bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bütün bunlar reallıqdır və bu reallığı biz özümüz yaradırıq, heç kimdən yardım almadan, maliyyə dəstəyi almaq üçün heç bir beynəlxalq maliyyə qurumuna müraciət etmədən. Baxmayaraq ki, bu gün dünya ölkələrinin mütləq əksəriyyəti maliyyə yardımı üçün müraciət edib. Biz öz gücümüzə arxalanırıq. Biz bu imkanları xalqımızın istedadı və düşünülmüş siyasət nəticəsində əldə etmişik”* - deyə Prezident İlham Əliyev müşavirədə qeyd etdi.

### Heç bir proqram dayandırılmır

Sosial məsələlərin respublikamızda dövlət siyasətinin prioritetlərindən biri olması təcrübədə özünü göstərən reallıqdır. Əgər respublikamızın sosial inkişaf dinamikasına nəzər salsaq, davamlı şəkildə cəmiyyətin bütün üzvlərinin rifahının yüksəldilməsi yönündə mühüm qərarların qəbul olunduğunu, əsaslı tədbirlərin həyata keçirildiyini görərik.

*Ardı 2-ci səh.*

# İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə İndoneziya arasında ikitərəfli münasibətlərin, beynəlxalq təsisatlar, xüsusən də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əlaqələrin hazırkı səviyyəsi məmnunluq doğurur.

Bəşəriyyətin üzləşdiyi COVID-19 pandemiyası ilə mübarizədə Azərbaycan xalqının İndoneziya xalqı ilə həmrəy olduğunu qeyd etmək istəyirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İndoneziya Respublikasına daim rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2020-ci il*

# “Azərbaycanı haqq yolundan çəkindirmək mümkün deyil”

## Dövlət başçısı dəfələrlə bu vacib məqama toxunub

Azərbaycanın COVID-19-dan az itki ilə çıxacağı Ümumdünya Səhiyyə Təşkilatının rəsmiləri tərəfindən də birmənalı şəkildə təsdiqlənməkdədir. Bunun, əlbəttə, bir sıra siyasi, sosial səbəbləri var ki, onlardan ən vacibi ölkədə pandemiyaya qarşı xalq-hakimiyyət birliyi, həmrəyliyidir.

Pandemiyanın tüğyan etdiyi dövrdə ölkəmizdə sosial sahəyə diqqətin azalmaması da məhz bu bəladan xilas yollarından biridir. Məsələ bundadır ki, Azərbaycan bu gün, əslində isə, illərdir ki, bir cəbhədə mübarizə aparmır, gözəgörünən və görünməz düşmənlərlə döyüşür.

*Ardı 3-cü səh.*

# Ehtiyat igidin yaraşığıdır

## 2020-ci ilin dövlət büdcəsinə dəyişikliklər qlobal təhlükələrdən sığortalanmağa, yeni iqtisadi çağırışlara səmtlənməyə imkan yaradır

Prezident İlham Əliyev 2020-ci ilin dövlət büdcəsinə dəyişikliklərlə bağlı qanunu təsdiq etmişdir. İqtisadçı ekspertlər bu dəyişiklikləri risklərin qarşılanmasına və perspektiv planların mümkün qədər reallıqlara uyğunlaşdırılmasına imkan verən kompleks tədbirlər kimi şərh edirlər.

Ölkə iqtisadiyyatı bu ilə də pis başlamamışdı. Bu ilin birinci rübündə ümumi daxili məhsulun (ÜDM) həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,1, o cümlədən qeyri neft-qaz sektorunda 3,5 faiz artmışdı. İqtisadiyyatın bir çox digər sektorlarında da artım müşahidə olunurdu. Lakin ilin əvvəlindən Çində başlayan və ildırım sürəti ilə bütün dünyanı bürüyən koronavirus qlobal miqyasda makroiqtisadi sabitliyə ciddi təsir etməklə iqtisadi və sosial böhranlara səbəb oldu.

Bu dalğa gücləndikcə, onun qarşısını almaq çətinləşdikcə qlobal iqtisadiyyatda böhran dərinləşdi, dünyanın enerji və səhm bazarlarında, sözün əsl mənasında, fırtına qopdu.

Bütün ölkələr sərhədlərini qapadılar, həyat adi axarından çıxdı. Nəticədə neftin qiyməti sürətlə ucuzlaşdı. Bu səbəbdən Azərbaycanın dövlət büdcəsinə xarici valyuta daxilolmaları kəskin azaldı.

Bu ilin 6 ayı ərzində ötən ilin eyni dövrü ilə müqayisədə ölkə üzrə ÜDM istehsalı 2,7, o cümlədən qeyri neft-qaz sektorunda 2,5, əsas kapitala yönəldilmiş vəsaitin həcmi 2,7 faiz azaldı. Bu azalmalar ölkə iqtisadiyyatının bir çox başqa sahələrini də əhatə etdi.

*Ardı 2-ci səh.*

# «Şahdəniz» yatağı ən azı 100 il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcək

Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” qaz-kondensat yatağından hasilat ahəngdar davam edir. Əvvəlki illərdə olduğu kimi yataqdan çıxarılan qaz Azərbaycan, Gürcüstan və Türkiyə bazarlarına, eləcə də çoxsaylı obyektlərin fəaliyyətini təmin etmək üçün BTC şirkətinə çatdırılır. Hazırda “Şahdəniz” qurğularının hasilat gücü gündə 56 milyon, ildə 20 milyard standart kubmetrdən çox mavi yanacaq təşkil edir.



“Şahdəniz” yatağında iki hasilat platforması istismar olunur. “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” platformalarını “Şahdəniz”in qoşa qanadı da adlandırırlar. “Şahdəniz Alfa” 14 ildir ki, yatağın işlənməsinin birinci mərhələsi çərçivəsində fəaliyyət göstərir. “Şahdəniz Bravo” isə layihənin ikinci mərhələsi çərçivəsində 2018-ci ildə işə salınıb.

*Ardı 2-ci səh.*

# Paşinyan dünya qarşısında rəzil oldu

## BBC-nin “HARDTalk” proqramında rüsvay olan Ermənistan baş naziri siyasətçi kimi formalaşmadığını, təcrübəsiz və səriştəsiz olduğunu bir daha göstərdi

Azərbaycan qlobal informasiya savaşında dünya erməniliyini gücdən salmaqla, neytrallaşdırmaqla yanaşı, ötən dövr ərzində Ermənistanın siyasi rəhbərlərini, bu gün isə baş nazir Nikol Paşinyanın siyasi iflasını uğurla həyata keçirir. Prezident İlham Əliyev həmişə Ermənistan rəhbərliyini ifşa edib, onu rəzil hala salıb və dünya erməniliyinin əsl məkrli mahiyyətini danılmaz faktlarla açıqlayıb.

Bunun nəticəsidir ki, artıq Paşinyanın boş avantüralarına, ağa qara deməklə nağıllar uydurmasına heç kim inanmır. Hər dəfə beynəlxalq media resurslarında müsahibələri, tədbirlərdəki çıxışları yalan və saxtakarlığın klassik forması olmaqla yanaşı, özünü pis vəziyyətdə qoyması ilə yadda qalır. Bu günlərdə Ermənistanın baş naziri özünü növbəti dəfə BBC televiziyasının “HARDTalk” proqramında rüsvay edib.

Veriliş boyu məşhur teleaparıcı Stiven Sakurun obyektiv və faktlara əsaslanan sualları qarşısında aciz duruma düşən Paşinyan ənənəsinə sadiq qalaraq onlardan yayınıb, rabitəsiz cavablar verib və işğala haqq qazandırmağa çalışıb.

*Ardı 4-cü səh.*



# Yumşalmalara doğru addım-addım...

## İctimai iaşə obyektlərində müştərilərə açıq hava şəraitində xidmət göstərilməsinə icazə verildi

Bütün dünyada olduğu kimi, Azərbaycanda da qlobal pandemiya ilə mübarizə davam edir.

Ölkədə sanitar-epidemioloji vəziyyət təhlil edilərək, koronavirusa yoluxma sayında müsbət dinamika nəzərə alınaraq sərtləşdirilmiş karantin rejimində mərhələli şəkildə yumşalmalar tətbiq olunur. Belə ki, avqustun 5-dən SMS icazə sistemi ləğv edildi, çimərliklər açıldı. Avqustun 10-dan iqtisadi aktivliyin gücləndirilməsi zərurəti nəzərə alınaraq sərt karantin rejiminin yumşaldılması istiqamətində növbəti tədbirlər paketi qüvvəyə mindi. Müvafiq qərara əsasən, sərtləşdirilmiş karantin rejiminin tətbiq olunduğu Bakı, Sumqayıt, Gəncə, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir şəhərlərinin və Abşeron, Bərdə, Salyan, Xaçmaz, Goranboy, Göygöl rayonlarının ərazisində qeyd olunan tarixdən etibarən bir sıra istehsal, ticarət və xidmət sahələrinin fəaliyyətinə icazə verildi. İri ticarət mərkəzləri və mollardan başqa, qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazalar açıldı, bəzi sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilən məhdudiyyətlər aradan götürüldü.

*Ardı 3-cü səh.*

# Azərbaycanda uğurlu sosial siyasət yürüdülür

## İlham ƏLİYEV: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"

*Əvvəli 1-ci səh.*



Xüsusilə qeyd edilməlidir ki, ardıcıl şəkildə pensiyaların və əməkhaqlarının artırılması, o cümlədən aztəminatlı ailələrin sosial müdafiəsinə ayrıca diqqət yetirilməsi respublikada reallaşdırılan sosial siyasət kursunun mühüm tərəfini təşkil edir. Bütün bunların nəticəsi olaraq yoxsulluq səviyyəsi dəfələrlə azalıb, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində mühüm nəticələr əldə olunub.

Azərbaycan reallığında başqa bir həqiqət ondan ibarətdir ki, iqtisadiyyatda baş verən çətinliklərə rəğmən, ölkədə bir dənə də olsun sosial proqram dayandırılmadı. Buna misal olaraq Prezident İlham Əliyevin diqqəti, qayğısı nəticəsində ölkəmizdə şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasını, onların mənzillə və fərdi evlərlə təminatı proqramının ildən-ilə genişlənməsini göstərmək olar. Son olaraq iyulun 21-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasiminin keçirilməsi bunu təsdiq edir.

Xatırladaq ki, 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil və fərdi ev, 2019-cu ildə isə bundan 50 faiz çox olmaqla 934 mənzil və fərdi ev verilib. Pandemiya dövrü olmasına baxmayaraq, bütün sosial proqramlar kimi bu proqram da genişləndirilir. Belə ki, dövlət başçısının tapşırığına əsasən, 2020-ci ildə şəhid ailələri və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulur ki, onlardan da artıq 554-ü verilib. Ümumilikdə isə, indiyədək şəhid ailələrinə və müharibə əlillərinə 8142 mənzil və fərdi ev verilib.

Respublikamızın ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların minik avtomobilləri ilə təminatı da diqqətdə saxlanılır. Prezident İlham Əliyevin xüsusi qayğısı nəticəsində bu istiqamətdə tədbirlər geniş vüsət alır. Belə ki, müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 2018-ci ildə 265 avtomobil, 2019-cu ildə isə 600 avtomobil verilib. 2020-ci ildə də 400 avtomobilin verilməsi nəzərdə tutulub və onlardan artıq 150-si təqdim edilib. Ümumilikdə isə, indiyədək müharibə əlilləri və onlara bərabər tutulanların 6900 minik avtomobili ilə təminatı həyata keçirilib.

Onu da qeyd edək ki, bu ilin əvvəlindən pensiyaların indeksasiyası ilə bağlı dövlət başçısının qəbul etdiyi qərara uyğun olaraq 1,2 milyon pensiyaçının pensiyaları 16,6 faiz artırılıb. Ümumilikdə isə, bu ilin ötən dövründə orta pensiya ötən ilin müvafiq dövrü ilə müqayisədə 27 faiz artaraq 300 manata yaxınlaşıb. Hazırda Azərbaycan minimum pensiyanın məbləğinə görə alıcılıq qabiliyyəti üzrə MDB-də birinci yeri, orta pensiyanın alıcılıq qabiliyyəti üzrə isə ikinci yeri tutur.

Azərbayanda sosial siyasət kompleks xarakter daşımaqla vətəndaşların rifahına xidmət edən hər bir sahəni tam əhatə edir. Ən mühümü isə odur ki, bu siyasətin davamlılığı ekstremal şəraitlərdə belə uğurla təmin edilir. Pandemiya dövründə görülən işlər bunu bir daha bütün dünyaya nümayiş etdirdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Prezidentin köməkçisi Hikmət Hacıyevin Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı şərhi Türkiyə KİV-də işıqlandırılıb

Türkiyənin "Öncə Vətən" qəzeti, "Can Azərbaycan" və "Kocaeli KOZ" informasiya agentlikləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin AZƏRTAC-a "Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası sanki saxta tarix dərsliyidir" adlı şərhini yayıb.


Hikmet Hacıyev: Ermenistan'ın yeni Ulusal Güvenlik Stratejisi sahte bir tarih kitabı gibidir

AZƏRTAC xəbər verir ki, türk dilində yayılan materialda Hikmət Hacıyevin Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı fikirləri yer alıb.

Prezidentin köməkçisi qeyd edib ki, ümumiyyətlə, Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası sanki saxta tarix dərsliyidir. Adətən belə sənədlərdə tarixə bu qədər istinadlar olmur. Hiss olunur ki, Ermənistan yenə də keçmişin girovluğundan qurtula bilməyib və çatışmazlıq kompleksi özünü bu sənəddə də büruzə verib.

Bildirilir ki, strategiya adlı sənəddə şovinist, ksenofob və irqçi dəyərlərin təbliğ olunduğu dərhal sezilir. Erməni xalqının böyüklüyü, onun digər xalqlardan üstünlüyü barədə, eləcə də qonşu xalqlara qarşı dözümsüzlük kimi mesajlar verilir.

Qeyd edilir ki, strategiyada Türkiyəyə qarşı da fikirlər öz əksini tapır, qondarma soyqırımına istinadlar edilir. Bunun səbəbi Türkiyənin beynəlxalq hüququ və tarixi ədaləti əsas tutaraq Ermənistanı Azərbaycanın işğal edilmiş ərazilərini azad etməyə çağırmasıdır. Mifik tarixə köklənən Ermənistan bir daha nümayiş etdirir ki, qonşuları ilə sülh şəraitində yaşaya bilmir və bu səbəbdən də Ermənistanın bir dövlət kimi gələcək inkişafı mümkün deyil.

# *"The Jerusalem Post":* "Azərbaycan-İsrail tərəfdaşlığı güclü, dayanıqlı və perspektivlidir"

Azərbaycan-İsrail tərəfdaşlığı güclü, dayanıqlı və ümidvericidir. Ermənistan isə Azərbaycanın İsrail də daxil olmaqla xarici tərəfdaşları ilə əlaqələrini manipulyasiya etməyə çalışır.

AZƏRTAC xəbər verir ki, bu sözlər İqtisadiyyat naziri, Azərbaycan-İsrail hökumətlərarası komissiyasının həmsədri Mikayıl Cabbarovun "The Jerusalem Post" nəşrində dərc olunan məqaləsində yer alıb.

Müəllif məqalədə qeyd edir ki, hazırda dünya ən çətin sınaqdan keçir. COVID-19 pandemiyası insanların həyat modelini dəyişdi. Hər gün minlərlə insan pandemiyanın qurbanı olur. Bu, beynəlxalq nizamin iqtisadi və sosial dirəklərini sarsıdır, yoxsulluğu artırır və inkişafı ləngidir.

Bu çətin günlərdə Azərbaycanın daha bir təhlükəsizlik çağırışı ilə üzləşdiyini bildirən Mikayıl Cabbarov qeyd edir ki, Dağlıq Qarabağ bölgəsi və ona bitişik 7 rayonun işğalı ilə kifayətlənməyən qonşu Ermənistan iyulun 12-də ölkəmizə qarşı irimiqyaslı hərbi hücuma başlayıb. Bu hücum Dağlıq Qarabağdan kifayət qədər uzaqda yerləşən Tovuz istiqamətində həyata keçirildi. Maraqlı məqam odur ki, Azərbaycanın karbohidrogen ehtiyatlarını dünya bazarlarına daşıyan əsas neft və qaz boru kəmərləri məhz Tovuzdan keçir. Beləliklə, Ermənistanın təcavüzkar hərəkətləri dünya iqtisadi bazarına təhlükə yaradır və Azərbaycanın İsrail də daxil olmaqla enerji istehlakçılarının enerji təhlükəsizliyini təhdid edir.

Müəllif bildirir ki, Ermənistanın təxribatçı hərəkətinin daha bir səbəbi onun daxili vəziyyəti ilə əlaqədardır. Hazırda Ermənistan iqtisadiyyatı dərin böhran keçirir. Ölkədə korrupsiya geniş yayılıb, immiqrasiya artır, pandemiyaya qarşı mübarizə uğursuzluğa düçar olub. Ölkədəki siyasi vəziyyət qeyri-sabitdir, elit qruplar bir-biri ilə mübarizə aparırlar. Belə olan halda Ermənistan hökuməti insanların diqqətini daxili problemlərdən yayındırmaq üçün xaricdə təxribatlar törədir.

Yazıda vurğulanır ki, son hərbi təxribat onsuz da həssas vəziyyətdə olan sülh danışıqlarına ziyan vurur. Ermənistan bu yolla Azərbaycan ərazilərinin işğalını davam etdirmək istəyir. Ən dəhşətlisi isə odur ki, Ermənistan öz təcavüzkarlığını qlobal müstəviyə çıxarmaq fikrindədir. Təxribatlardan sonra xaricdəki Azərbaycan icmaları öz vətənlərini dəstəkləmək üçün bir çox ölkədə dinc yürüşlər keçirdilər. Los-Ancelesdə, Brüsseldə, Ottavada və Londonda azərbaycanlı nümayişçilər radikal erməni millətçilərinin hücumlarına məruz qaldılar. Bu bir daha göstərir ki, masa arxasında, faktlar və hüquqi əsaslarla sülh danışıqları aparmaq əvəzinə, Ermənistan tərəfi hərbi təcavüz, şiddət və nifrət yolunu tutur.

"Ermənistan hətta Azərbaycanın İsrail də daxil olmaqla xarici tərəfdaşları ilə olan əlaqələrini manipulyasiya etməyə çalışır. Erməni təxribatçıları İsrail mediasında sifarişli yazılar dərc etdirir, bununla da Azərbaycan ilə bu dövlətin münasibətlərini sanksiyalar, qadağa və boykotlar vasitəsilə sarsıtmağa çalışır", - deyə məqalədə vurğulanır.

Ermənilərin arqumentlərinin İsrail cəmiyyətində maraq doğurmayacağına əminliyini bildirən müəllif yazır: "Yəhudi xalqı həqiqəti yaxşı bilir. Azərbaycan hər zaman sivilizasiyalarının qovuşduğu məkan olub və ticarət yollarının mərkəzində yerləşib. Bu, bizim tolerantlıq adət-ənənəmizi, hər kəsin inancına göstərdiyimiz hörməti şərtləndirir. Azərbaycan qədim yəhudi icmasının vətənidir, burada onlar heç vaxt antisemitizmlə üzləşməyiblər. Yəhudilər bizim parlamentdə təmsil olunurlar və yəhudi əsgərlər vətənləri uğrunda canlarından keçiblər".

Məqalədə diqqətə çatdırılır ki, Ermənistandan fərqli olaraq, Azərbaycan öz tərəfdaşları ilə münasibətlərini manipulyasiya etməyə çalışmır. Azərbaycan İsraillə qarşılıqlı əlaqələri inkişaf etdirir, amma bundan üçüncü tərəfə qarşı istifadə etmir. Azərbaycanın səyləri hər zaman beynəlxalq təhlükəsizliyə, sabitliyə və sülhə dəstək verməkdən ibarətdir. "Biz tolerantlığı və qarşılıqlı hörməti təşviq etmək istəyirik. Biz divarlar tikmək əvəzinə, körpülər salmağa çalışırıq və dostlarımız artıq bizim yaratdığımız əlaqələrdən bəhrələnə biliblər", - deyə müəllif qeyd edir.

# Ehtiyat igidin yaraşığıdır

*Əvvəli 1-ci səh.*

Ekspertlər iqtisadi aktivliyin zəifləməsinin, neft gəlirlərinin azalmasının və digər maliyyələşmə mənbələrinin daralmasının geci-tezi dövlət büdcəsinin gəlir və xərclərində illərboyu mövcud olan möhkəm tarazlığın pozulacağını demişdilər və bu da baş verdi.

İndiki vəziyyətdə perspektivlərdən danışmaqdansa, nə qədər çətin olsa da, bir o qədər sürətlə yeni addımların atılması vacibdir. Səhiyyə və sosial yardım xərcləri artmaqdadır, özəl sektora, biznesin digər sahələrinə iqtisadi dəstək lazımdır, ölkənin müdafiə qabiliyyəti və təhlükəsizliyi də xərclərin artmasını tələb edir. İqtisadçılar belə qənaətə gəlirlər ki, bütün bunlar, öz növbəsində, dövlət büdcəsinin xərclərinə yenidən baxılmasını gündəmə gətirir. Büdcənin gəlir və xərcləri arasında tarazlığın bərqərar edilməsi və kontrsiklik büdcə siyasətinin həyata keçirilməsi məqsədilə 2020-ci ilin dövlət büdcəsinin dürüstləşdirilməsinə ehtiyac yaranıb.

Qısaca bəzi vacib məqamları qeyd edək: dövlət büdcəsi gəlirlərinin 12 milyard 200 milyon manatını və ya 50,6 faizini Dövlət Neft Fondundan transfert, 7 milyard 190 milyon manatını (29,8 faizini) Dövlət Vergi Xidmətindən, 3 milyard 830 milyon manatını (15,9 faizini) isə Dövlət Gömrük Komitəsindən daxilolmalar təşkil edəcəkdir. Dəyişiklikdən sonra dövlət büdcəsinin dürüstləşdirilmiş xərcləri 27 milyard 492,2 milyon manat olmuşdur ki, bu da ötənilki büdcədən 597,5 milyon manat və ya 2,2 faiz çoxdur. Yeni təsdiq olunan dövlət büdcəsinin xərclərinin 18 milyard 46,9 milyon manatı və ya 5,6 faizi cari xərclərə yönəldiləcəkdir.

Beləliklə, dürüstləşdirilən büdcə Azərbaycanın maliyyə planlarını tam və bütün istiqamətlər üzrə icra etməyə imkan verəcəkdir. Yeni təsdiq olunan büdcə mahiyyət etibarı ilə sosialyönümlüdür, yəni dəyişiklikdən sonra da sosial müdafiə və dəstək tədbirlərini ön plana çəkir. Ən vacib məqamlardan biri isə odur ki, dövlətin iqtisadi sahələrə dəstəyi tam şəkildə başa çatdırılacaq, biznesə və investorlara maliyyə dəstəyi davam etdiriləcək, nəzərdə tutulan vacib iqtisadi proqramlar və sosial layihələr gerçəkləşdiriləcəkdir. Yeni təsdiq olunan büdcənin üstünlüyü həm də ondan ibarətdir ki, bu ali maliyyə sənədində qeyri-neft sektorunun dayanıqlı inkişafına, maliyyə intizamının gücləndirilməsinə və şəffaflığın artırılmasına xüsusi zəmin yaradılır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# *"Naxçıvan Muxtar Respublikası: dayanıqlı inkişaf, uğurlar, perspektivlər"* mövzusunda beynəlxalq onlayn konfrans keçirilib

"Naxçıvan Muxtar Respublikası: dayanıqlı inkişaf, uğurlar, perspektivlər" mövzusunda beynəlxalq onlayn konfrans keçirilib.

AMEA Naxçıvan bölməsindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və AMEA Naxçıvan bölməsinin təşkilatçılığı ilə keçirilən beynəlxalq onlayn konfransda Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi, Azərbaycan Dövlət İdarəçilik Akademiyası, AMEA İqtisadiyyat İnstitutu ilə yanaşı, Türkiyənin Ərzurum Atatürk və Qars Qafqaz universitetlərinin əməkdaşları da iştirak ediblər.

Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid bildirib ki, Naxçıvan Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biridir. Beş min il bundan əvvəl Naxçıvanda şəhər mədəniyyətinin formalaşması bu yurdda sivilizasiyanın inkişafının ən mühüm göstəricisi hesab olunur. Naxçıvan həm də Azərbaycanın dövlətçilik tarixinə mühüm töhfələr verən bir diyardır. Azərbaycan türkləri min illər boyu burada ardıcıl həyat sürmüş böyük dövlətçilik ənənələrinin əsasını qoyub. Bölgədə X əsrdə Naxçıvan şahlığı, XII əsrdə Azərbaycan Atabəylər dövləti yaranıb, XVIII-XIX əsrlərdə Naxçıvan xanlığı, XX əsrin əvvəllərində Araz-Türk Respublikası fəaliyyət göstərib.

Qeyd edilib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi vaxtdan keçən dövr ərzində respublikamızın siyasi-iqtisadi və sosial həyatında mühüm dəyişikliklər baş verib, ölkədə sosial-siyasi sabitlik bərqərar olub, dinamik iqtisadi inkişaf dövrü başlanıb.

Diqqətə çatdırılıb ki, muxtar respublikada sosial-iqtisadi inkişafın təməlində sosialyönümlülük, hər bir vətəndaşın maddi rifahının artırılması, iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələrdir.

AMEA Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Naxçıvan Muxtar Respublikası dayanıqlı inkişaf yollarında (1995-2020)" mövzusunda məruzə ilə çıxış edərək vurğulayıb ki, muxtar respublikanın inkişafında 1995-2020-ci illərin xüsusi yeri var. Bu illərdə muxtar respublikanın həm iqtisadi, həm də sosial həyatında baş verən dəyişikliklər yüzillik inkişafa bərabərdir. Kənd və şəhərlərimizin abadlaşdırılması, inzibati binaların, sosial obyektlərin tikilməsi, tarix və mədəniyyət abidələrinin bərpası, yolların çəkilməsi, səliqə-sahmanın ən yüksək səviyyədə olması, insanların rifah halının yaxşılaşması diyarımızın bugünkü inkişaf mənzərəsinin təsdiqidir.

Akademik bildirib ki, son 25 ildə muxtar respublikada bütün sahələrdə dayanıqlı inkişaf təmin olunub. İqtisadi sahədə olduğu kimi, sosial sahədə də çox böyük nailiyyətlər əldə edilib. Muxtar respublikanın dayanıqlı inkişafı təhsil, elm, mədəni-maarif müəssisələri, səhiyyə və digər sahələrdə də özünü göstərir.

Onlayn konfransda Ərzurum Atatürk Universitetinin əməkdaşı, iqtisad elmləri doktoru, professor Kerem Karabulutun "Türkiyə-Naxçıvan sosial-iqtisadi əlaqələrinin dəyərləndirilməsi", Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayevin "Naxçıvan Muxtar Respublikasında ali təhsilin inkişafı", Azərbaycan Dövlət İdarəçilik Akademiyasının professoru, AMEA-nın müxbir üzvü Əli Nuriyevin "Naxçıvan Muxtar Respublikasında iqtisad elminin məhsuldar inkişafı ətrafında düşüncələr", Qars Qafqaz Universitetinin əməkdaşı, iqtisad üzrə fəlsəfə doktoru Tuncer Yılmazın "Naxçıvan iqtisadiyyatının ümumi vəziyyəti və Türkiyə ilə ticarət əlaqələrinin tədqiqi" mövzularında məruzələri dinlənilib. Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşı, iqtisad elmləri doktoru, professor Nazim Əhmədov, AMEA Naxçıvan bölməsinin Təbii Ehtiyatlar İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru Eltun İbrahimov da müxtəlif mövzularda məruzələr ediblər.

# «Şahdəniz» yatağı ən azı 100 il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcək

*Əvvəli 1-ci səh.*

"Şahdəniz"in əməliyyatçısı olan BP şirkətindən aldığımız məlumata görə, bu ilin birnci yarısında yataqdan, ümumilikdə, təqribən 9,4 milyard standart kubmetr qaz və 1,9 milyon ton (15,4 milyon barel) kondensat hasil edilib. Yeri gəlmişkən, qeyd edək ki, "Şahdəniz"in kondensatı Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinə vurulur.

Ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensatdan ibarət olan "Şahdəniz" dünyanın ən nəhəng karbohidrogen yataqlarındandır. Məhz bu yatağın uğurla işlənməsi və istismar edilməsi sayəsində Azərbaycan dünyada qaz ixrac edən ölkə kimi tanınıb. "Şahdəniz" çəkilişi cari ilin sonunadək tam yekunlaşacaq "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyidir.

Bu il avqustun 10-da "Qarabağ" yatağında quraşdırılacaq stasionar dəniz özülünün əsas hissələrindən birinin - dayaq blokunun Xəzərə yola salınmasında iştirak edən Prezident İlham Əliyev qurğu ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına verdiyi müsahibədə həmişə olduğu kimi, "Şahdəniz"i yenə də yüksək dəyərləndirmişdir: "Bu layihə icra olunmadan bizim enerji siyasətimiz yarımçıq qala bilərdi. Amma bu gün bizim enerji siyasətimiz ölkəmizin maraqlarını tam təmin edir. "Şahdəniz" yatağı ən azı yüz il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcəkdir. Eyni zamanda biz ixrac coğrafiyamızı genişləndirmək əzmindəyik... Əgər "Şahdəniz" üzrə kontrakt imzalanmasaydı, bu gün biz nəinki başqa ölkələrin, öz enerji təhlükəsizliyimizi təmin edə bilməzdik. Çünki "Şahdəniz" bizim üçün əsas mənbədir. Biz bütün bu işləri görməklə Avrasiyanın yeni enerji xəritəsini tərtib edirik və Azərbaycan uzun müddət bundan sonra bir çox ölkələr üçün strateji tərəfdaş olaraq qalacaqdır."



Xatırladaq ki, "Şahdəniz" layihəsində BP (operator - 28,8 faiz), TPAO (19 faiz), AzŞD (10 faiz), "Cənub qaz dəhlizi" və Apstrim (6,7 faiz), PETRONAS (15,5 faiz), LUKOYL (10 faiz), NİKO (10 faiz) şirkətləri tərəfdaşlıq edirlər. Operator şirkətin məlumatına görə, bu ilin birinci yarısında "Şahdəniz" üzrə əməliyyat xərclərinə 409 milyon dollara yaxın və əsaslı xərclərə 452 milyon dollar vəsait sərf olunub. Əsaslı xərclərin böyük əksəriyyəti "Şahdəniz-2" layihəsinə çəkilib.

Hazırda "Şahdəniz" yatağında bir neçə istiqamətdə iş aparılır. Son aylarda "Xankəndi" tikinti gəmisi sualtı quraşdırma işlərini davam etdirib. "Şahdəniz Bravo" platforması və şərq-cənub cinahı arasında axın xətlərinin mexaniki quraşdırılması isə "İsrafil Hüseynov" borudüzən gəmisi vasitəsilə yerinə yetirilir. "Şahdəniz-2" layihəsi çərçivəsində 2021-ci ildə yatağın şərq-cənub cinahından hasilatın başlanması üçün bütün işlər plana uyğun aparılır.

Hasilatı artırmaq üçün qazma əməliyyatları da davam etdirilir. "İstiqlal" və "Maersk Explorer" qurğuları "Şahdəniz-2"də hasilatı həyata keçirmək və sonradan tədricən artırmaq üçün, ümumilikdə, 18 quyu qazıb. Bunlardan 16-sı tamamlanıb. Qazma işləri hasilatın planlaşdırılan sabit səviyyəsinə nail olmaq üçün tələb olunan bütün quyuların qazılması istiqamətində davam edəcək.

İndi "Şahdəniz" qazı Avropaya çatmaq ərəfəsindədir. Belə ki, ilin axırınadək "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) çəkilişinin yekunlaşacağı gözlənilir. Beləliklə, TAP genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri (CQBK) və Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə nəql olunan Azərbaycan qazını qəbul edərək Avropadakı istehlakçılara çatdıracaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

## Hikmət HACIYEV: “Rəsmi ezamiyyə vərəqəsi ilə bölgələrimizə səfərlər həmin rayonlarımızda yoluxma hallarının artmasına təsir göstərib”

“Ötən həftə və bu həftə ərzində aparılan monitorinqlərə əsasən deyə bilərik ki, çimərliklərdə bir o qədər də sıxlıq müşahidə olunmur. İlkin mərhələdə, yəni ötən həftənin sonlarında müəyyən sıxlıq müşahidə olunmuşdur. Kütləvi İnformasiya Vasitələrinin aktiv fəaliyyəti, həmçinin Bakı Şəhər İcra Hakimiyyətinin və digər aidiyyəti qurumların məlumatlandırma tədbirləri nəticəsində çimərliklərdə sıxlığın aradan qaldırılması və vətəndaşlarımızın təhlükəsiz şəraitdə istirahət etmələri təmin edilib”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev avqustun 15-də Nazirlər Kabineti yanında Operativ Qərargahın koronavirusla bağlı keçirilən brifinqində bildirib.

Hikmət Hacıyev deyib ki, Çimərlik.az portalına müraciət edən vətəndaşlarımızın sayı artmaqdadır. Portala müraciət edən vətəndaşlarımız vəziyyətə uyğun olaraq sıxlığın müşahidə olunmadığı çimərliklərə gedirlər.

Rayonlara gediş-gəlişin açılması ilə bağlı məsələyə toxunan Prezidentin köməkçisi qeyd edib ki, bu məsələ hazırda müzakirə olunmaqdadır. “Regionlarda və Bakı şəhərində olan mövcud epidemioloji vəziyyət, həmçinin ezamiyyə vərəqələri və müxtəlif icazələrlə səfər edənlərin həmin regionlarımızla Bakı arasında əlaqələri və bunun epidemioloji vəziyyətə təsiri kimi məqamlar araşdırılır. Görünən odur ki, rəsmi ezamiyyə vərəqəsi ilə bölgələrimizə səfərlər həmin rayonlarımızda yoluxma hallarının artmasına təsir göstərib”, - deyə Prezidentin köməkçisi vurğulayıb.




## Muzdlu işçilərə maliyyə dəstəyi verilməsi üçün siyahı artıq Maliyyə Nazirliyinə təqdim edilib

Pandemiyadan zərər çəkən sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin göstərilməsinin ikinci mərhələsi başlayıb.

AZƏRTAC xəbər verir ki, bu sözləri avqustun 15-də Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahda keçirilən brifinqdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva deyib.

O bildirib ki, artıq 49 min 329 kiçik fərdi sahibkara 12,3 milyon manat dəyərində maliyyə dəstəyi göstərilib. Muzdlu işçilərə dəstək verilməsi üçün siyahılar hazırlanıb və Maliyyə Nazirliyinə təqdim edilib.

* * *

Yanvar-iyul aylarında vergi daxilolmaları 103,5 faiz icra olunub.

AZƏRTAC xəbər verir ki, bu sözləri avqustun 15-də Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahda keçirilən brifinqdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva deyib.

O bildirib ki, sosial sığorta ödəmələri üzrə müəyyən olunan proqnoz tapşırıqları isə 113,2 faiz icra edilib. Baş verən artımın əsas səbəblərindən biri aparılan şəffaflaşma siyasətidir.

## Təhsil müəssisələrinin açılması ilə bağlı qonşu ölkələrin təcrübəsi də öyrənilir

Təhsil müəssisələrinin açılması ilə bağlı qonşu ölkələrin təcrübəsi də öyrənilir. Lakin bununla bağlı qərar qəbul olunarkən ölkədəki epidemioloji vəziyyət nəzərə alınacaq.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın avqustun 15-də keçirilən brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

O bildirib ki, Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən aidiyyəti institutlar məhz elmi nöqteyi-nəzərdən bu məsələləri araşdırırlar. Təhsil müəssisələrinin müxtəlif təsnifatı var - məktəbəqədər, orta, ali və peşə təhsili. Təhsil müəssisələrinin açılması ilə bağlı qərarlar qəbul olunarkən müəssisələrin xüsusiyyətləri, sinif otaqlarında, auditoriyalarda şagirdlərin, tələbələrin sayı da nəzərə alınacaq.

“Təhsil Nazirliyi tərəfindən xüsusi ictimai forum yaradılıb. Bu forum vasitəsilə şagirdlərin, valideynlərin, təhsil ekspertlərinin fikirləri də öyrənilir. Təhsil müəssisələrinin açılması ilə bağlı müzakirələrdə bu fikirlərə də diqqət ayrılacaq”, - deyə Hikmət Hacıyev qeyd edib.

## Xüsusi karantin rejiminin qaydaları çərçivəsində qanvermə aksiyaları təşkil olunacaq

“Hər il Aşura günündə məscidlərdə də qanvermə aksiyaları təşkil olunurdu. Lakin bu il pandemiya ilə əlaqədar məscidlər fəaliyyət göstərmir. Bu il vətəndaşlar Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankına yaxınlaşaraq qan verə bilərlər. Bu məsələ Qafqaz Müsəlmanları İdarəsi ilə də müzakirə olunur”.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında TƏBİB-in Mikrobiologiya İşçi Qrupunun rəhbəri Qumral Ələkbərova deyib. Onun sözlərinə görə, eyni zamanda Milli Hematologiya və Transfuziologiya Mərkəzinin bir neçə şöbəsi bu məqsədlə ayrılıb və xüsusi karantin rejiminin qaydaları çərçivəsində qanvermə aksiyaları təşkil olunacaq. Vətəndaşlar sosial məsafə prinsiplərinə əməl etməklə və maska taxmaq şərti ilə qanvermə aksiyalarında iştirak edə bilərlər.

* * *

Gələn həftə COVID-19-la mübarizə çərçivəsində seroloji skrinninq aparılacaq. Əsas məqsəd COVID-19-a qarşı immunitetin formalaşıb-formalaşmadığını müəyyənləşdirməkdir. TƏBİB-in Mikrobiologiya İşçi Qrupunun rəhbəri Qumral Ələkbərovanın sözlərinə görə, testlər könüllülük prinsipi əsasında və təsadüfi seçilmiş əhali qrupu arasında aparılacaq. Həmin testlər üçün 3-5 millilitr qan nümunəsi toplanılacaq.

## Azərbaycanda koronavirus infeksiyasından daha 207 nəfər sağalıb, 89 yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 207 nəfər sağalıb, 89 yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 34 min 107 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 31 min 697 nəfər müalicə olunaraq sağalıb, 506 nəfər vəfat edib. Aktiv xəstə sayı 1904 nəfərdir. Ötən müddət ərzində 826 min 43 test aparılıb. Bugünkü test sayı isə 6041-dur.

## “Azərbaycanı haqq yolundan çəkindirmək mümkün deyil”

Əvvəli 1-ci səh.

Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayan Ermənistanın təcavüzü nəticəsində itirdiyi ərazilərini bərpa etmək üçün həm beynəlxalq miqyasda fəaliyyətini artırır, həm də sərhəddə müharibə aparmaq məcburiyyətindədir.

Belə bir vəziyyətdə dövlət başçısının ölkənin regionlarının da paytaxt səviyyəsində inkişafına nail olunması istiqamətində yürütdüyü sosial-iqtisadi siyasət xüsusilə diqqətçəkəndir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin açılışında iştirak edərkən bir sıra vacib məqamlara, xüsusən ordu quruculuğuna, düşmənin təxribatlarının qarşısının alınmasında bundan sonra da qətiyyət göstəriləcəyinə toxunmuşdu.

Bildirmişdi ki, son illər ölkəmizdə ordu quruculuğunda, xüsusilə hərbi hissələrin tikintisində Azərbaycan standartları tətbiq edilir ki, bu da ən yüksək qiymətə layiqdir.

Ali Baş Komandanın göstərişi ilə bütün hərbi hissələr, şəhərciklər, bazalar, demək olar ki, yenidən qurulur. Bu, bir daha Azərbaycan dövlətinin öz ordusuna göstərdiyi qayğının təzahürüdür. Ordu quruculuğu prioritet məsələdir, çünki Azərbaycan müharibə şəraitindədir.

Tovuzda Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın əvvəlcədən planlaşdırılmış təxribatının qarşısının qəhrəmancasına alınmasında, dövlət sərhədinin və mülki insanların təhlükəsizliyinin təmin olunmasında yüksək texnologiyaların effektiv tətbiqi ordumuzun inkişaf səviyyəsini və döyüş qabiliyyətini bir daha təsdiqlədi.

Azərbaycan Ordusunun son illər ərzindəki uğurları göz qabağındadır. Bunu orduların reytinqlərini tərtib edən sanballı qurumlar da etiraf edirlər. Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclülər sırasındadır. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan Ordusu çox yüksək peşəkarlığa malikdir: “...Mənim göstərişimlə son illərdə ordumuzun silah-sursat, texnika ilə təchizatı da təşkil edilir. Bu məqsədlər üçün milyardlarla dollar vəsait xərclənib. 15 il bundan əvvəl yaradılmış Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 1300-dən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Bizdə heç vaxt hərbi sənaye yox idi. Əgər biz bunu yaratmasaydıq, bu gün böyük problemlərlə üzləşə bilərdik. Amma indi nəinki özümüzü bir çox hərbi təyinatlı məhsullarla təmin edirik, ixrac da edirik və ixrac coğrafiyamız artıb...”

Bəli, göz qabağındadır ki, orduya, zabitə, əsgərə qayğı, məişət, xidmət şəraitinin yaxşılaşdırılması və silah-sursat, texnika ilə təchizatı, döyüş qabiliyyətinin artırılması əsas amillərdir, əlbəttə, vətənpərvərlik isə ilk növbədə. Ali Baş Komandan hesab edir ki, hər bir hərbi hissədə ideoloji tərbiyə yüksək səviyyədə təşkil edilməlidir. Buna bütün rəhbər heyət cavabdehlik daşıyır ki, gənclərimiz milli, vətənpərvərlik ruhunda böyüsün, müstəqilliyin qədrini bilsinlər.

Bizim gənclər qədim və müasir tariximizi bilməli, xəyanəti unutmamalı, xəyanətkarları tanımalıdırlar: “Bu münaqişə Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin acı mirasıdır. Çünki məhz onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşüb. Bunu hər kəs bilməlidir. Şuşanın işğalı böyük faciə idi. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. Azərbaycan Xalq Cəbhəsi istənilən yollarla hakimiyyətə gəlmək istəyirdi. O, əvvəlki hakimiyyəti yıxmaq üçün ən çirkin, ən xəyanətkar əməllərə əl atdı, Şuşanı ermənilərə təhvil verdi. Hərbçilər yaxşı bilirlər, Şuşa alınmaz qaladır. Onu almaq mümkün deyil. Onu təhvil verdilər, satdılar ki, hakimiyyəti yıxsınlar, hakimiyyətə gəlsinlər...”

Dövlət başçısı öz nitqində Azərbaycanın son illər ərzində sürətli inkişafını həzm edə bilməyən bir sıra güclü, hegemon dövlətlərin, eləcə də dünyadakı mövcud erməni lobbisi və diasporlarının təsiri altına düşərək öz vətəninə, xalqına xəyanət yolu tutanların antimilli hərəkətlərinə də münasibət bildirdi. Ölkə Prezidenti belələrini düşməndən də təhlükəli adlandırdı, onlar “sapı özümüzdən olan baltalar”dır, - dedi: “Mən demişəm ki, Azərbaycanda nə qədər pis olsa, onlar üçün o qədər yaxşıdır. Görün, nəyə sevinirlər? Sevinirlər ki, neftin qiyməti 14 dollara düşüb. Buna kim sevinir? Bir Ermənistan, bir də özünü müxalifət adlandıran bu antimilli şura. Neftin qiyməti 14 dollara düşəndə axı insanlar bundan əziyyət çəkəcək, problemlər yaranacaq, sosial sahədə problemlər yaşana bilər, iqtisadiyyatımız yavaşıyar. Amma bu, onların işinə yarayır, Azərbaycan üçün nə qədər pisdir, onlar üçün o qədər yaxşıdır”.

Amma ölkəmizdə vətənpərvərlər daha çoxdur. Azərbaycan gəncliyi daim dövlətinin və xalqının yanında olduğunu dəfələrlə göstərib. Azərbaycan Prezidenti İlham Əliyev Balakən regional ASAN Mərkəzinin açılışında da bunu diqqətə çatdırdı. Dövlət başçısı xüsusilə Nazirlər Kabinetinin toplantısında bu məsələ ilə bağlı fikirlərini bildirdikdən sonra bir həftə ərzində 50 mindən çox Azərbaycan gənci Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə üz tutdu, könüllü olaraq Vətəni qorumaq üçün qeydiyyatdan keçdi: “Mən demişəm ki, Azərbaycan Ordusu tam komplektləşdirilib və bu gün əlavə canlı qüvvəyə ehtiyac yoxdur. Ancaq əgər ehtiyac olarsa, bir həftə ərzində qeydiyyata alınmış 50 mindən çox insan Vətən uğrunda, torpaq uğrunda vuruşmağa hazırdır”.

Dünyanın bir çox ölkələrində gənclərin ordudan yayındığı və alternativ hərbi xidmətlərə üz tutduğu, həmçinin Ermənistan da daxil olmaqla, digər ölkələrdə muzdlular orduya cəlb edildiyi halda, Azərbaycan gənclərinin və ümumiyyətlə, xalqının vətənpərvərliyi, könüllü olaraq ordu sıralarına yazılması aparılan məqsədyönlü siyasətin nəticəsidir. Bu, həmçinin orduda aparılan köklü islahatların, xalqın orduya inamının və “Xalq-Ordu” vəhdətinin göstəricisidir. Çünki Azərbaycan Ordusu xalqın ordusudur!

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycanın diaspor nümayəndələrinə müraciətini də xatırlamaq yerinə düşərdi. Xaricdə yaşayan soydaşlarımızın vahid bir qüvvə kimi Azərbaycanın haqq səsini dəstəkləməsi, təxribatlardan uzaq olaraq dinc yolla və qanuni şəkildə Ermənistanın vandalizminə qarşı etiraz aksiyaları keçirməsi, antimilli qüvvələrin bunlardan kənar durmaları, eləcə də ermənilərlə eyni tezislərlə həmin tədbirlərə qarşı fəaliyyətə keçmələri diqqətdən yayınmayıb.

Azərbaycan diasporunun həmrəyliyi və gücü qarşısında erməni lobbi qrupları acizdir. Zorakılığa əsaslanan, nifrətə səbəb olan cinayətlərə əl atmaları həmin ölkələrin, xüsusilə ABŞ-ın məhkəmə-hüquq orqanları tərəfindən cinayət kimi hadisəyə qiymət verilməsi də dövlətimizin yürütdüyü səmərəli xarici siyasətin bariz nümunəsidir.

Azərbaycan diaspor nümayəndələrinin ermənilərin təxribatından çəkinmələri, öz etirazlarını olduqları ölkənin qanunları çərçivəsində bildirmələri də diqqətdən yayınmadı. Erməni lobbi dairələrinin Azərbaycan diplomatik nümayəndəliklərinə, ABŞ-ın Liviyada (Benqazi) baş konsulluğuna, habelə ASALA terror təşkilatının türk diplomatlara hücumları birmənalı şəkildə dünya ictimaiyyəti tərəfindən nifrət və etirazla qarşılanır. Ümumiyyətlə, bu, etnik terrorizmin bir formasıdır. Erməni terrorizmi bu gün ən aktual mövzuya çevrilib. Bu da Ermənistanın xarici siyasətinin fiaskoya uğraması deməkdir.

***Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***



# Yumşalmalara doğru addım-addım...

## İctimai iaşə obyektlərində müştərilərə açıq hava şəraitində xidmət göstərilməsinə icazə verildi

Əvvəli 1-ci səh.

### Kafe və restoranlar yeni qaydalarla işləyəcək

Nazirlər Kabineti yanında Operativ Qərargahın Bakı, Sumqayıt, Gəncə, Yevlax, Masallı, Cəlilabad, Mingəçevir şəhərlərinin və Abşeron, Bərdə, Salyan, Xaçmaz, Goranboy, Göygöl rayonlarının ərazisində elan edilmiş sərtləşdirilmiş karantin rejimində dəyişiklik haqda qərarına əsasən, avqustun 18-dən etibarən ictimai iaşə obyektlərində müştərilərə açıq hava şəraitində xidmət göstərilməsinə icazə verilir.

Sadalanan ərazilərdə ictimai iaşə obyektlərində, eləcə də restoran, kafe, çay evləri və bu kimi digər məkanlarda müştərilərə açıq hava sahəsində yerində xidmət saat 09:00-dan 22:00-dək həyata keçiriləcək. Qəlyan avadanlıqlarından istifadə və hər bir masa arxasında 6 nəfərdən artıq toplaşmaq qadağası qüvvədə qalır.

İctimai iaşə obyektlərinin giriş-çıxışlarında, kassalarda dezinfeksiya məhlulundan istifadə imkanı, o cümlədən dezinfeksiya məhlulundan istifadə üçün müvafiq qurğuların (dispenserlərin) yerləşdirilməsi və həmin qurğuların işlək vəziyyətdə olması təmin edilməlidir.

Qərara əsasən, ictimai iaşə obyektlərinin fəaliyyəti mövcud qaydalara, sanitariya normalarına və metodiki göstərişlərin tələblərinə uyğun təşkil olunmalıdır.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev avqustun 15-də Nazirlər Kabineti yanında Operativ Qərargahın koronavirusla bağlı keçirilən brifinqində yumşalmalar barədə danışarkən bildirib ki, müsbət nəticələrə birgə səylərimizlə nail olmuşuq. Ölkə üzrə mövcud epidemioloji vəziyyət qiymətləndirilir, dünyadakı yoluxma tendensiyası ciddi şəkildə təhlil edilir və müvafiq yumşaldılma tədbirləri həyata keçirilir.

H.Hacıyevin sözlərinə görə, koronavirusla mübarizə hələ də beynəlxalq gündəlikdə əsas məsələ kimi qalmaqdadır. Azərbaycan da beynəlxalq miqyasda koronavirus pandemiyası ilə əlaqədar gedən prosesləri yaxından izləyir, tərəfdaş ölkələrlə, beynəlxalq təsisatlarla məsləhətləşmələri davam etdirir: “Bundan əvvəlki dövrdə bir sıra ölkələrdə karantin rejimi aradan qaldırılmışdı. Lakin həmin ölkələrdə yoluxma hallarının artması ilə əlaqədar yenidən karantin rejiminin tətbiqi müşahidə olunur. Görülən tədbirlər nəticəsində Azərbaycanda yoluxma hallarının azalmasına nail olundu. Son günlər rəqəmlərdə olan müsbət tendensiya bizi sevindirir. Vətəndaşların təmkinli, səbirli davranışı nəticəsində biz buna nail olmuşuq. Ancaq buna baxmayaraq, hər birimiz daha da ehtiyatlı olmalıyıq. Yoluxma hallarının azalması vətəndaşlarımızın mövcud karantin rejiminin şərtlərinə riayət etməsinin nəticəsidir. Lakin əvvəlki günlərdən fərqli olaraq bəzən bu rəqəmlərdə cüzi də olsa artma müşahidə olunur. Bu da vətəndaşların fəallıq dinamikası ilə bağlıdır. Ölkələrdə koronavirusun yayılma tendensiyası öyrənilərək müvafiq açılmalar həyata keçirilir. Bu, müvafiq qaydalar çərçivəsində baş verir. Bu gün də ictimai iaşə obyektlərində müştərilərə açıq hava şəraitində xidmət göstərilməsi ilə bağlı qərar açıqlanıb. Bir daha vətəndaşlarımızdan maskalardan istifadəyə, sosial məsafəyə, gigiyena qaydalarına riayət etmələrini xahiş edirik”.

### Qaydaların pozulmasına görə inzibati cərimələr tətbiq olunacaq

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva vurğulayıb ki, iaşə obyektlərində açılmalar qaydalar çərçivəsində həyata keçiriləcək: “Müəyyən saat çərçivəsində iaşə obyektlərinin işinə icazə veriləcək. Həmçinin sahibkarların üzərinə vəzifə qoyulur ki, içəri daxil olan müştərinin maskalardan istifadəsinə nəzarət etsin, olmadıqda onu təmin etsin. Həmçinin içəridə olan işçilər də maskadan istifadə etməlidirlər. Qaydalarda göstərilən tələblərin pozulmasına görə inzibati cərimələr tətbiq olunacaq. Müəyyən fəaliyyət sahələri var ki, onların fəaliyyətinə, ümumiyyətlə, icazə verilmir. Qadağan olunmuş fəaliyyəti həyata keçirən təsərrüfat subyektlərinə qarşı qanunla müəyyən olunmuş cəzalar həyata keçiriləcək. Sahibkarlardan qeyd olunan tələblərə əməl olunmasını xahiş edirik”.

S.Musayeva onu da əlavə edib ki, iyulun 3-dən bu zamana qədər Dövlət Vergi Xidməti tərəfindən 14 min 509 ticarət obyektində monitorinq aparılıb. Monitorinq aparılan ticarət obyektlərinin 1708-də sanitar-gigiyena tələblərinin pozulması müəyyən edilib. “İyulun 3-dən aparılan monitorinqlər onu deməyə əsas verir ki, ticarət obyektlərində epidemiya rejiminə əməl edilməsi ilə bağlı müsbət hal müşahidə edilir. Belə ki, ilk həftələrdə qaydaları pozan obyektlər 25-30 faiz təşkil etdiyi halda, hazırda bu rəqəm 11,8 faizdir”.

### Açılmalara doğru getdikcə yoluxmalar arta bilər

TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva brifinqdə çıxışı zamanı qeyd edib ki, sərt karantin rejiminin tətbiqi və ya açılmalara getmə ilə bağlı qərar verilən zaman təkcə çarpayı fondunun boşluğu nəzərə alınmır. Burada bir çox önəmli məsələlər var. Həm xəstəliyin yoluxma sürətini, həm də onun 14 günlük inkubasiya dövrünü diqqətdə saxlamaq lazımdır. Bundan başqa, xəstəliyin ağırlıq dərəcəsi də nəzərə alınmalıdır. Yəni yüngül və orta-ağır xəstələrin çarpayını tutması bir həftəyə qədər davam edərsə, ağır xəstələrdə bu müddət 2-3 həftə ola bilər. Bu, çarpayının doluluq faizinə təsir göstərir.

Y.Qarayevanın sözlərinə görə, dünyada belə qərarların qəbulu zamanı ən önəmli məqam reanimasiya çarpayılarının doluluğu və süni tənəffüs aparatında olan xəstələrin sayıdır: “Çünki reanimasiyaya düşən ağır vəziyyətdə olan xəstənin müalicə müddətinin nə qədər davam etməsi bilinmir. Bu, çox uzunmüddətli olur. Sadəcə adi, stasionar çarpayıların doluluğu ilə hansısa qapanma, yumşalma, karantinə getmə qərarları qəbul olunmur. Burada xüsusi modelləşdirilmiş statistik, çox ciddi alqoritmlər var. Onların daxilində xəstəliyin öz xüsusiyyətləri və əlimizdə olan fiziki imkanlarımız nəzərə alınır”.

Şöbə müdiri hazırda Bakıda çarpayıların doluluq faizinin 24, regionlarda isə 11 faiz təşkil etdiyini söyləyib. Bu göstərici ümumi ölkə üzrə 14 faizə bərabərdir. “Bu, o deməkdir ki, biz yoluxan xəstələrə tibbi xidmət göstərməyə hazırıq və çarpayı fondunda heç bir problem yoxdur”, - deyə o, əlavə edib.

Yaqut Qarayeva gündəlik yoluxma saylarında kiçik artmaların vətəndaşlarımızı narahat etdiyini vurğulayaraq deyib ki, buna hazırlıqlı olmalıyıq: “Açılmalara doğru getdikcə bu vəziyyət gözləniləndir. Əsas odur ki, vəziyyət nəzarət altında olsun və yoluxanların sayı sağalanların sayını ciddi şəkildə ötməsin. Bu rəqəmlərin nəzarət altında saxlanılması bizim özümüzdən asılıdır. Qaydalara ciddi əməl olunsa və rəqəmlər bu səviyyədə qalsa, xəstəxanalarda xəstələrə normal tibbi yardım göstərilə bilər”.

Pandemiyanın elan olunduğu ilk gündən indiyədək Azərbaycanda koronavirusa qarşı səmərəli mübarizə müsbət dinamika yaradıb. Dövlətin həyata keçirdiyi zəruri və qabaqlayıcı tədbirlər sayəsində ölkədə vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. İyulun 16-dan sonra yaranan müsbət dinamika ölkədə koronavirus xəstəliyinin fəsadlarının minimuma endirildiyini deməyə əsas verir. Bütün bunlar dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi düşünülmüş qabaqlayıcı tədbirlərin, Azərbaycan hökumətinin qəbul etdiyi qərarların müsbət nəticəsidir. Bu nəticəni qoruyub saxlamaq isə hazırda vətəndaşların üzərinə düşür. Yumşalmalar artdıqca vətəndaşların məsuliyyət hissi də artmalı, karantin qaydalarına hər zamankından daha çox riayət olunmalıdır. Məhz belə olduqda alışdığımız və arzuladığımız həyata yenidən qayıda bilərik.

***Xəyalə MURADLI, “Azərbaycan”***

# *ATƏT PA-nın vitse-prezidenti:* "Həmsədrlərin Ermənistanın qanunsuz fəaliyyətinə münasibət bildirmələri üçün kifayət qədər əsaslar var"

"Avqustun 4-də Livanın paytaxtı Beyrutda baş verən partlayışlar işğalçı Ermənistanın növbəti avantürası üçün bəhanə oldu. Belə ki, Ermənistan hakimiyyəti partlayış nəticəsində zərər çəkmiş Livan ermənilərini beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə Cenevrə Konvensiyasına zidd olaraq Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz məskunlaşdırmağa başlayıb. Ötən illərdə də Ermənistan Suriyada baş verən hərbi əməliyyatlardan sui-istifadə edərək orada yaşayan ermənilərin bir hissəsini Azərbaycanın işğal olunmuş ərazilərinə köçürmüşdü".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycanın ATƏT Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri, ATƏT Parlament Assambleyasının vitse-prezidenti Azay Quliyev söyləyib.

Açıqlamada deyilir: "Bəs, Ermənistan rəhbərliyinin bu cür qanunsuz addımlar atmaqda və yüz faiz riskli ərazilərə soydaşlarını yerləşdirməkdə (bəzən aldadaraq və şirnikləndirici təkliflər verərək) əsas məqsədi nədən ibarətdir? Burada iki mühüm məqama diqqəti cəlb etmək lazımdır.

Birincisi, Ermənistan bu yolla Dağlıq Qarabağda kəskin şəkildə azalmış ermənilərin sayını süni şəkildə artırmaq, digər tərəfdən isə hərbi xidmətə yararlı olanları səfərbərliyə cəlb etməklə ordudakı canlı qüvvə çatışmazlığını aradan qaldırmaq istəyir.

İkincisi isə, Ermənistan yaxşı bilir ki, Azərbaycan heç vaxt işğalla barışmayacaq və zəbt edilmiş ərazilərini - Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayonunu hansı yolla olsa işğalçılardan təmizləyəcək. Azərbaycan xalqının iradəsi və tələbi, ordumuzun artan gücü, Ali Baş Komandanın qətiyyətli mövqeyi, o cümlədən son günlər qardaş Türkiyə ilə uğurla həyata keçirdiyimiz birgə hərbi təlimlər və digər amillər bu fikri söyləməyə ciddi əsaslar yaradır. Belə olan halda Ermənistan hakimiyyəti nəyə görə istənilən an təmizləmə əməliyyatlarının başlaya biləcəyi riskli ərazilərə yaxın Şərqdən erməniləri köçürməyə davam edir? Məncə, bu sualın cavabı ondan ibarətdir ki, Paşinyan hakimiyyəti Livanda çətin duruma düşən soydaşlarını işğal altındakı 7 rayona yerləşdirməklə mümkün hərbi əməliyyatlar zamanı bu biçarələrdən canlı şit kimi istifadə etmək, Azərbaycanı mülki əhaliyə qarşı güc tətbiq etməkdə və onları öldürməkdə qınamaq üçün "təbii əsaslar" əldə etmək istəyir. Görünür, bununla Ermənistan beynəlxalq rəyi Azərbaycanın əleyhinə yönəldəcəyinə və təmizləmə əməliyyatına müəyyən qədər maneçilik törədəcəyinə ümid edir. Bütün bunlar Ermənistanın hərbi-siyasi rəhbərliyinin nə qədər məkrli, riyakar və ikiüzlü olduğunu, ən əsası isə faşist mahiyyətini bir daha üzə çıxarır".

"İndi hamımızın, xüsusilə diplomatiyamızın, parlamentin və vətəndaş cəmiyyəti institutlarının qarşısında duran əsas vəzifələrdən biri Ermənistanın bu məkirli planının qarşısını almaq və beynəlxalq ictimaiyyəti bu barədə məlumatlandırmaq istiqamətində imkanlarımızı tam səfərbər etməkdən ibarət olmalıdır", - deyən Azay Quliyev bildirib ki, Azərbaycanın xüsusilə son bir ildə həm diplomatik cəbhədə, həm də informasiya savaşında Ermənistanı xeyli üstələməsi özümüzə inamı daha da artırır. "Biz bu üstünlüyü martın 31-də Ermənistanın Dağlıq Qarabağda səhnələşdirdiyi qondarma seçkilərə və iyulun 12-də Tovuzda törətdiyi hərbi təxribata beynəlxalq ictimaiyyətin, ayrı-ayrı ölkələrin verdiyi reaksiyada, Azərbaycana göstərilən diplomatik və siyasi dəstəkdə də hiss etdik. Bu baxımdan, Ermənistanın qanunsuz məskunlaşdırma planının tam iflasa uğraması və nəticəsiz qalması üçün real imkanların olduğunu düşünürəm. Bunun üçün beynəlxalq təşkilatlarla, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədrlik institutu ilə daha yaxından işləməli və onların qarşısında konkret məsələ qoymalıyıq. İlk növbədə, həmsədrlərdən Ermənistanın bu qanunsuz hərəkətinə münasibət bildirməyi və onun qarşısını almağı tələb etməliyik. Münaqişənin hərbi yolla həllinin yolverilməz olduğunu, atəşkəsə əməl olunmasının vacibliyini hər bəyanatında qətiyyətlə vurğulayan ABŞ, Rusiya və Fransadan biz də bu dəfə tələb etməliyik ki, eyni istəklə Ermənistanın bütün beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycanın işğal altındakı ərazilərində həyata keçirdiyi qanunsuz məskunlaşdırma planını kəskin şəkildə pisləsin, onun yolverilməz olduğunu bildirsin və onlara verilən mandatdan istifadə edərək bu özbaşınalığın qarşısını alsınlar. Onsuz da 2005-ci ildə ATƏT-in faktaraşdırıcı missiyası işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşma faktını aşkarlamış və hesabatlarında bunları açıq şəkildə qeyd etmişdir. Yəni, həmsədrlərin Ermənistanın bu qanunsuz fəaliyyətinə münasibət bildirmələri üçün kifayət qədər əsaslar var", - deyə ATƏT Parlament Assambleyasının vitse-prezidenti vurğulayıb.

Narahatedici məqamlardan biri də budur ki, vasitəçilərin bu qanunsuzluğa etiraz etməməsi onların işğala və işğalçıya açıq dəstək vermələri anlamına gəlir. Onsuz da Rusiyanın son bir ayda sülhyaratma mandatına zidd olaraq işğalçı Ermənistana 400 tondan çox silah və sursat verməsinin Azərbaycan ictimaiyyətində ciddi narazılıq və kəskin etiraz doğurduğunu diqqətə çatdıran Azay Quliyev bildirib: "Bütün bunlara rəğmən, biz diplomatik kanallardan və beynəlxalq tribunalardan istifadə edərək Azərbaycanın kifayət qədər haqlı və əsaslandırılmış bu narahatçılığını daha sərt şəkildə hər üç ölkənin Xarici İşlər nazirliyinin diqqətinə çatdırmalı və onlardan məsələyə konkret münasibət bildirmələrini istəməliyik. Əlbəttə, onların Azərbaycanın bu haqlı tələbinə obyektiv və ədalətli reaksiya verəcəyini heç kim gözləmir, çünki cəmiyyətdə ATƏT-in Minsk qrupunun həmsədrlərinə inam və etimad qalmayıb. Buna baxmayaraq, həmsədrlərə təzyiqi maksimum dərəcədə artırmalı, onların ədalətliliyini və obyektivliyini davamlı olaraq sorğulamalıyıq.

Əgər ATƏT-in Minsk qrupunun həmsədrləri bu qanunsuzluğa tam olaraq göz yumsa, ona bu və ya digər formada münasibət bildirməsə, o zaman onlar münaqişənin sülh yolu ilə həllinə vasitəçi olmaq hüququnu birdəfəlik itirəcəklər".

## XİN və "Azərkosmos" Azərbaycanın işğal altında olan ərazilərində Ermənistanın qeyri-qanuni fəaliyyəti ilə bağlı birgə açıqlama yayıb

Xarici İşlər Nazirliyi və "Azərkosmos" ASC Azərbaycanın işğal altında olan ərazilərində Ermənistanın qeyri-qanuni fəaliyyəti, o cümlədən məskunlaşdırma siyasəti ilə bağlı "Azersky" peyki vasitəsilə aparılmış monitorinqlərə dair birgə açıqlama yayıb.

AZƏRTAC XİN-ə istinadla xəbər verir ki, açıqlamada deyilir: "Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində işğalçı ölkənin qeyri-qanuni fəaliyyəti, o cümlədən məskunlaşdırma siyasəti davam etdirilir. "Azərkosmos" ASC-nin "Azersky" peyki vasitəsilə aparılmış monitorinqlər nəticəsində ölkəmizin işğal altındakı Kəlbəcər rayonunun ərazisində qeyri-qanuni yaşayış məskəninin salınması faktı öz təsdiqini tapıb.

2019-cu ilin sonlarından etibarən salınmağa başlamış bu yaşayış məskəni hazırda 15 evdən ibarətdir. İnşaat işlərinin sürəti və gedişi bu yaşayış məskəninin daha da genişlənəcəyini deməyə əsas verir. Belə ki, 2020-ci ilin yanvarında bu yaşayış məskənində 6 ev, martda 10 ev, apreldə 14 ev hazır vəziyyətə gətirilmişdisə, avqust ayında bu rəqəm artıq 15-ə çatıb. Düşmənin bu cür süni məskunlaşdırma siyasətinin tərkib hissəsi olaraq son illər işğal altında olan rayonlarda, o cümlədən Cəbrayılda "Aracamux", Laçında "Ariavan" adlı yaşayış kompleksləri, Zəngilanda, Qubadlının Xanlıq kəndində yeni yaşayış məntəqələrində evlərin tikilməsi ilə bağlı qeyri-qanuni fəaliyyət həyata keçirilib.

Peyk təsvirlərinin analizində göründüyü kimi, yeni yaşayış məntəqələrinin salınması faktı Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan tərəfinin beynəlxalq humanitar hüquq, o cümlədən 1949-cu il Cenevrə konvensiyaları və onların Əlavə protokollarına, insan hüquqları normalarına zidd olaraq qeyri-qanuni fəaliyyətini davam etdirdiyini sübut edir.

Bu qanunsuz fəaliyyət Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarının işğalının davam etdirilməsi və möhkəmləndirilməsi, ərazilərimizin ilhaqı və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə və mülklərinə geri qayıtmasının qarşısının alınmasına yönəlib.

Xatırladaq ki, beynəlxalq hüquqla yanaşı, Azərbaycan qanunvericiliyini kobud şəkildə pozaraq ölkəmizin işğal edilmiş Dağlıq Qarabağ və ətraf bölgələrində qanunsuz fəaliyyət həyata keçirən Ermənistan, onun fiziki və hüquqi şəxsləri, eləcə də həmin ərazilərdə qeyri-qanuni fəaliyyətdə iştirak edən bütün digər şəxslər və şirkətlər inzibati və hüquqi məsuliyyət daşıyırlar.

Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarının azərbaycanlı sakinlərinin öz evlərinə geri qayıtmaq hüququ təmin ediləcək və təcavüzkar Ermənistan bütün qeyri-qanuni əməllərinin hüquqi cavabını verəcəkdir".

## Ermənistana məxsus növbəti taktiki PUA məhv edilib

Avqustun 15-i saat 16:20-də Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin növbəti PUA-sı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən dərhal aşkar olunaraq məhv edilib.

# Ermənistan təxribatlarını davam etdirir



## Son məğlubiyyətini unutdurmaq üçün işğalçı ölkə yeni avantüralara başlayıb

Tarixin bütün dövrlərində Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi, soyqırımı və işğalçılıq siyasəti həyata keçirən Ermənistan terrorçu niyyətindən, faşist ideologiyasından əl çəkmir. Son 17 ildə bütün beynəlxalq təşkilatların toplantılarında, mühüm siyasi arenalarda, son illər savaş meydanında Azərbaycana uduzan təcavüzkar ölkə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan bütün danışıqları pozaraq mövcud status-kvonun saxlanması üçün istənilən təxribata əl atır. Yəni, erməni xislətində hələ də heç bir dəyişiklik yoxdur.

Təəssüflə qeyd etməliyik ki, Ermənistanın istənilən təxribatı qarşısında illərdir ki, susqunluq nümayiş etdirən dünya birliyinin də mövqeyində hansısa bir dəyişiklik hiss olunmur. Elə buna görə də özünü cəzasızlıq şəraitində hiss edən təcavüzkar, terrorçu erməni hakimiyyəti məkrli planlarını, hərbi təxribatlarını davam etdirir.

### Həmsədr ölkə Ermənistanı silahlandırmaqla etibarını itirir

Son günlər ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Rusiya Federasiyası tərəfindən işğalçıya 400 tondan artıq hərbi təyinatlı yüklərin daşınması, Dağlıq Qarabağdakı qondarma rejimin başçısı Araik Aratunyanın Gəncəni vurmaqla bağlı sayıqlaması gərginliyin artmasına səbəb olub.

Əlbəttə ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məqsədilə yaradılmış Minsk qrupunun həmsədr ölkəsinin vasitəçilik məntiqinə sığmayan bu hərəkəti Azərbaycan cəmiyyətini narahat etməyə bilməz.

Ölkədə gedən müzakirələrdə haqlı olaraq soruşulur - Rusiya hansı əsaslarla işğalçıya silah hədiyyə edir. Axı, bu iki ölkə arasında silah satışı ilə bağlı hər hansısa müqavilə imzalanmayıb. Əgər belə bir müqavilə olsaydı, hər iki ölkənin mediasında məlumat öz əksini tapardı. Hərbi təyinatlı yüklərin başqa ölkələrin ərazisindən göndərilməsi isə hər şeyi çılpaqlığı ilə ortaya çıxarır.

Avqustun 12-də xalqın haqlı narazılığını birbaşa Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə çatdıran Azərbaycan Prezidenti cənab İlham Əliyev bu cəsarətli addımı ilə bir daha hər kəsə göstərdi ki, münaqişənin həlli istiqamətindəki mövqeyində və irəli sürdüyü yeganə şərtində heç bir dəyişiklik yoxdur.

Cənab İlham Əliyev rusiyalı həmkarının diqqətinə çatdırdı ki, Ermənistan-Azərbaycan sərhədində baş vermiş toqquşmalar başa çatandan sonra iyulun 17-sindən başlayaraq son günlərədək Rusiyadan bu ölkəyə hərbi təyinatlı yüklər daşınıb.

Təəssüfləndirici hal odur ki, həmin hərbi təyinatlı yüklərin daşınmasında cənub qonşumuz olan İran İslam Respublikasının, eləcə də Qazaxıstan və Türkmənistan kimi türkdilli ölkələrin hava məkanından istifadə edilib.

İyul ayının 17-dən avqust ayının 4-dək Rusiyadan Ermənistana təyyarə ilə 7 reys silah daşınıb. Qonşu Gürcüstan silahların özünün hava məkanından daşınmasına icazə vermədiyi üçün reyslər Rostov-Minvod (RF)-Aktau (QR)-Türkmənbaşı (TR)-Novşer-Rəşt (İİR)-Mehri-İrəvan olmaqla 3 xarici ölkə üzərindən daşınıb.

Prezident İlham Əliyev telefon danışığı zamanı bu məlumatları rusiyalı həmkarının diqqətinə çatdırmaqla həm də silahların hava məkanlarından daşınmasına razılıq verən tərəfdaş ölkələrə mesaj verdi. Cənab İlham Əliyev həmin ölkələrə çatdırdı ki, baş verən proseslər Azərbaycanın diqqətindən yayınmır. Avqustun 12-də bu mesajı alan sözügedən ölkələr hələ də rəsmi səviyyədə bu məsələyə münasibət bildirməyiblər.

Rusiyanın həmsədr ölkə kimi Ermənistanı silahlandırmasına gəlincə isə, siyasi ekspertlərin gəldiyi qənaət budur ki, vəziyyət bu cür davam edərsə, bu ölkə ATƏT-in Minsk qrupunun obyektiv, qərəzsiz və ədalətli vasitəçisi kimi etimadı itirəcək. Bu da Minsk qrupunun həyat qabiliyyətliliyini şübhə altına alır.

### Ermənistan yenə təxribata hazırlaşır, həmsədrlər isə həmişəki kimi susurlar

Bu hadisənin ardınca Dağlıq Qarabağdakı qondarma rejimin başçısı Araik Aratunyanın Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin vurula biləcəyi ilə bağlı sərsəm fikirləri isə bir daha təsdiq edir ki, terrora dövlət səviyyəsində dəstək verən Ermənistanın siyasi hakimiyyəti mövcud status-kvonun saxlanması üçün çirkin təxribatlarından əl çəkmək niyyətində deyil.

Görünür, Tovuzdakı uğursuzluq Ermənistanı yeni təxribatlara əl atmağa və revanş götürməyə vadar edir. İşğalçı ölkə artıq Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmağa adət edib və bununla öz yırtıcı və faşist simasını dəfələrlə nümayiş etdirib.

Görəsən, ATƏT-in Minsk qrupunun həmsədrləri bu sərsəm iddiaya niyə münasibət bildirmirlər? Turist diplomatiyasının nümayəndələri hələ yay tətilindən qayıtmayıblar?

Belə olan halda beynəlxalq təşkilatlar Ermənistanın Azərbaycanın ikinci böyük şəhərini vurmaqla hədələməsini nəzarətə götürməlidirlər və bu ölkənin hakimiyyəti bununla bağlı izahat verməlidir. Lakin beynəlxalq birliyin hələ də ikili standartlar xəstəliyindən əziyyət çəkməsi Ermənistanın bu cəzasızlıq mühitindən lazımınca yararlanmasına şərait yaradır.

### Mülki obyektlərin hədəfə alınması işğalçının standart praktikasıdır

Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma kriminal rejimin nümayəndələrinin səsləndirdiyi iddialara heç bir beynəlxalq təşkilat reaksiya verməsə də, Azərbaycanın Müdafiə Nazirliyi A.Aratunyana və onun rəhbərliyinə ciddi xəbərdarlığını etdi. Nazirliyin xəbərdarlığında qeyd edilir ki, Gəncə şəhərinin atəşə tutulması ilə bağlı hədələr düşmənin növbəti hərbi avantürası olmaqla yanaşı, işğalçılıq siyasətinin göstəricisidir və bu, onların növbəti təxribat əməlləri törətmək niyyətindən xəbər verir.

Mülki obyektlərin və yaşayış məntəqələrinin hədəfə alınması Ermənistan silahlı qüvvələrinin standart praktikasıdır. 2016-cı il aprel hadisələri, Tovuz rayonu istiqamətində baş vermiş döyüş toqquşmaları zamanı da Ermənistan silahlı qüvvələri tərəfindən mülki obyektlərin hədəfə alınması və dinc sakinlərin qəsdən öldürülməsi kimi əməllərin şahidi olmuşuq.

"Bir daha qətiyyətlə bildiririk ki, Azərbaycan Ordusu Ermənistanın bütün atəş nöqtələrini, hərbi dayaq məntəqələrini və digər legitim hərbi hədəflərini məhv etmək potensialına malikdir və buna qadirdir. Ermənistanın hər bir təxribatının qarşısı Tovuz döyüşlərində olduğu kimi qətiyyətlə alınacaq və bu kimi təxribatların törədilməsinə görə bütün məsuliyyət bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşəcəkdir", - deyə məlumatda qeyd olunub.

### Azərbaycanla təkbətək savaş üçün Ermənistanın nə cəsarəti var, nə də gücü

Gücü yalnız təxribata çatan Ermənistan hakimiyyəti yaxşı bilir ki, Azərbaycanla təkbətək açıq savaşa nə cəsarəti var, nə də gücü. Əgər belə olmasaydı, cənab İlham Əliyevin bu ölkənin rəhbərliyinə ünvanladığı "Gəl bizimlə təkbətək vuruş, təkbətək, baxaq görək bunun axırı nə olacaq" mesajı qarşısında acizlik nümayiş etdirməzdi.

Göründüyü kimi, düşmən ölkəyə açıq-aşkar meydan oxuyan Ali Baş Komandan bununla həm Ermənistana, həm də onun havadarlarına çatdırdı ki, Azərbaycan faktiki olaraq bu gün işğal edilmiş torpaqlarını istər diplomatik, istərsə də hərbi yolla geri almaq iqtidarındadır. İstənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan qüdrətli ordumuz var.

Əgər Ermənistan yenə də hər hansısa təxribat törətməyə cəhd etsə, növbəti faciəsi qaçılmaz ola bilər. Yəni, uşaq qatilləri yaxşı anlayırlar ki, yenə də Aprel, Günnüt, Tovuz döyüşləri təkrarlanarsa, ağır itki verəcəklər.

Ona görə də cənab İlham Əliyevin söylədiyi kimi, erməni xalqı indiki hakimiyyətin ağılsız və təhlükəli addımlarına nə qədər göz yumacaqsa, bir o qədər də cinayətkarların girovu kimi yaşamaq məcburiyyətində qalacaq.

Azərbaycanın mövqeyi isə hər kəsə bəllidir. Münaqişənin həlli istiqamətində aparılan bütün danışıqlarda xalqın istək və arzusunu əsas tutan cənab İlham Əliyevin qətiyyətli mövqeyində dəyişiklik yoxdur. Erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından çıxmasa, sülh yaranmayacaq və onlar özləri peşman olacaqlar.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycanın işğal olunmuş ərazilərində dini və tarixi-mədəni irsin məhv edilməsi yolverilməzdir

İraqın nüfuzlu "Non" qəzetində və nəşrin elektron resursunda Azərbaycanın bu ölkədəki müvəqqəti işlər vəkili Nəsir Məmmədovun "Azərbaycanın işğal olunmuş ərazilərində dini və tarixi-mədəni irsin məhv edilməsi yolverilməzdir" sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın işğalçılıq siyasəti və onun nəticələri barədə ətraflı məlumat verilib.

Diqqətə çatdırılıb ki, Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon 30 ilə yaxındır Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb, nəticədə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törədib və faciə nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq yalnız azərbaycanlı olduqlarına görə işgəncə verilərək vəhşicəsinə qətlə yetirilib. Xocalı qətliamı dünyanın 10-dan çox ölkəsi tərəfindən məhz soyqırımı kimi tanınıb.

Bildirilir ki, Azərbaycanın işğal olunmuş ərazilərində yaşı minilliklərlə ölçülən bütün tarixi abidələr, məscidlər, məzarlıqlar, müqəddəs ocaqlar Ermənistan tərəfindən dağıdılıb, muzeylər və maddi-mənəvi sərvətlər talan edilib. Ermənistan işğal olunmuş ərazilərdə məqsədli şəkildə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirir.

İşğal altındakı islam dininə aid abidələr, o cümlədən mədəniyyət abidələri dağıdılıb, təhqir olunub. Ermənilərin Azərbaycanın işğal olunmuş torpaqlarında tarixi-dini abidələrə qarşı törətdikləri saxtakarlıq və cinayət əməlləri beynəlxalq səviyyədə təsbit olunmuş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının, "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir.

Azərbaycan torpaqlarında, o cümlədən Dağlıq Qarabağda məhv edilən maddi mədəniyyət nümunələri sırasında 367 tarixi abidə, 67 məscid, 140 ziyarətgah, 140-ı isə məbədlərdir. Bu abidələr erməni işğalçıları tərəfindən dağıdılıb, məhv edilib və bununla da Azərbaycan xalqının milli-mənəvi yaddaşına güclü zərbə vurulub. Təbii ki, Azərbaycan dövləti bu işğalla barışa bilməz və öz mövqeyini ən müxtəlif səviyyələrdə bildirib.

*Əvvəli 1-ci səh.*

# Paşinyan dünya qarşısında rəzil oldu

O cümlədən sınıq-salxaq ingiliscə danışığı lağ obyektinə çevrilib. Bir sözlə, müsahibəsi Paşinyanın hələ siyasətçi kimi formalaşmadığını, təcrübəsiz və səriştəsiz olduğunu göstərdi.

Stiven Sakurun "Artıq böyük ümidlərlə hakimiyyətə gəldiyiniz "böyük məxməri inqilab" adlanan inqilabdan iki il ötür. Mən bu gün Ermənistana baxanda görürəm ki, ermənilərin böyük əksəriyyətinin ümidləri puç olub. Səhv nədə oldu?" - sualına cavabında N.Paşinyan ənənəvi ampluasına sadiq qalaraq xəyal etdiyi, heç özünün də inanmadığı "nailiyyətlərdən", adını da çəkmədiyi beynəlxalq reytinqlərdə qazanılan "uğurlardan" danışdı. Yəqin Paşinyan bu "nailiyyətlərdən" danışarkən öz ailəsinin korrupsiya yolu ilə əldə etdiyi sərvətləri, mülkləri nəzərdə tutur. Beynəlxalq ictimaiyyət yaxşı bilir ki, Ermənistanda insan hüquq və azadlıqları kobud şəkildə pozulur, jurnalistlər, siyasətçilər təqib və həbs olunur, ölkədə rüşvətxorluq, korrupsiya halları durmadan artır.

Stiven Sakur növbəti sualında "Sizin idarəetmənizdə bir çox insanların gözlədiyi kimi hər hansı bir dəyişiklik olmadı. Siz Azərbaycan ilə sülhə nail olmaq üçün hakimiyyətə gəldiniz. Lakin ötən ay biz yeni toqquşma, yeni münaqişə gördük" fikri ilə Paşinyanın da sələfləri kimi, işğalçı və faşist mahiyyətini bir daha ifşa etdi. Paşinyan özünün qeyri-səlis ingiliscəsi ilə bütün dünyaya məlum olan bu faktdan yayınmağa çalışdı. Aparıcı isə dərhal müdaxilə edərək bildirdi: "Cənab baş nazir, lakin fəaliyyət sözlərdən daha güclü səslənir. Biz iyulun ortalarında gördük ki, Ermənistan silahlı qüvvələri sərhəd boyunca kəndlərə atəş açır. Azərbaycana istinadla biz gördük ki, 76 yaşlı mülki vətəndaş qətlə yetirildi. Əlbəttə ki, bundan sonra daha da uzanan hərbi toqquşmaya gətirib çıxaran cavab atəşi açıldı. Bir daha qeyd etmək istəyirəm ki, sizin siyasətiniz sülhün bərqərar olması üçün hesablanmayıb". Paşinyan yenə də bu suala cavab tapmır və kəkələyərək nəsə demək istəyir. Lakin hər zaman olduğu kimi, heç bir fakta, sənədə əsaslanmayan fikirlər səsləndirməklə nə qədər savadsız və məntiqsiz danışdığını nümayiş etdirir.

Maraqlıdır, jurnalist qarşısında belə aciz duruma düşən Paşinyan, görəsən dövlət və hökumət başçıları ilə ikitərəfli və çoxtərəfli danışıqlar formatında hansı biabırçı vəziyyətə düşür? Paşinyan etiraf edir ki, münaqişə başlanan zaman Dağlıq Qarabağ əhalisinin 18 faizi erməni olub. İstər Münhen konfransı çərçivəsində debat, istərsə də bu müsahibə onu göstərir ki, Paşinyan Prezident İlham Əliyevlə danışıqlarda tam aciz, tərksilah olunmuş, küncə sıxılmış durumda olur.

Stiven Sakur BMT Təhlükəsizlik Şurasının sənədlərinə istinad edərək açıq şəkildə Paşinyanı sülhməramlı olmamaqda, Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməkdə, həmçinin işğal olunmuş torpaqlara qanunsuz səfərlərə görə ittiham etdi. Paşinyan bu dəfə də yalanlar silsiləsini davam etdirərək faktlardan yayınmağa, işğalçı mahiyyətini ört-basdır etməyə çalışdı. Aparıcı daha sonra Ermənistandan Dağlıq Qarabağa yol çəkilməsi planı barədə danışdı, Avropa Parlamentinin Cənubi Qafqaz üzrə məruzəçilərinin bununla bağlı etiraz bəyanatını xatırlatdı.

Bəlkə elə həm də buna görədir ki, bir daha görüşlərdə Azərbaycan Prezidenti ilə üz-üzə gəlib stress yaşamamaq üçün Paşinyan hər vəchlə təxribatlara gedərək danışıqları pozmağa çalışır. Paşinyanın strategiyasında mənalı sülh elementinin olmadığını açıq şəkildə ifadə edən aparıcı baş nazirin əvvəlki sələfləri kimi göründüyünü, onlardan fərqlənmədiyini vurğuladı. Ardınca isə Ermənistan silahlı qüvvələrinin 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində Azərbaycan xalqına qarşı törətdiyi cinayətləri xatırlatdı və Paşinyana "bunları etiraf etməyə və Azərbaycan xalqından üzr istəməyə hazırsınızmı" sualını verdi. Lakin Stiven Sakur dəfələrlə sualı təkrarlasa da, Paşinyandan dürüst cavab ala bilmədi: "Mən, sadəcə, erməni hərbçiləri tərəfindən törədilən cinayətlərə görə məsuliyyəti öz üzərinizə götürməyə və üzr istəməyə hazır olub-olmadığınızı bilmək istəyirəm. Bu, çox sadədir: Bəli və ya xeyr?". Əlbəttə ki, baş nazirin özündə cəsarət tapıb Azərbaycan xalqından üzr istəyəcəyini düşünmək sadəlövhlük olardı.

Daha sonra isə BBC-nin aparıcısı qeyd edib: "Mənə sadəcə maraqlıdır. Hiss edirsinizmi ki, koronavirus pandemiyası (COVID-19) ilə bağlı sizin hökumətinizə olan müəyyən diqqəti və təzyiqi azaltmaq, aradan qaldırmaq üçün hazırda sizə Dağlıq Qarabağda Azərbaycanla olan gərginliyi artırmaq faydalıdır? Çünki səmimi olsaq, sizin hökumətinizin pandemiya ilə mübarizəsinə baxsaq, bunu uğur adlandırmaq olmaz. Bu, sizin hökumətiniz üçün fiasko idi".

Beləliklə, sualların xarakteri bir daha onu göstərdi ki, artıq Qərb də həm Ermənistanda mürəkkəb və ziddiyyətli daxili proseslər, antidemokratiya, həm də Ermənistan - Azərbaycan münaqişəsinin həllində sələflərinin mövqeyini davam etdirdiyinə görə Paşinyandan üz döndərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***





# Ədəbiyyat





## Əbdürrəhim bəy Haqverdiyev - 150

### Tədqiqatçılar ədibin irsi haqqında

- "Ə.Haqverdiyevin nəsr dili bu dövr realist nəsrimiz üçün çox səciyyəvidir. Bu dildə sünilik, ibarəçilik, zahiri bəzək, əcnəbi təsir, demək olar ki, yoxdur. Canlı danışıq dilimizi, onun gözəl xüsusiyyətlərini, zəngin əlvan söz ehtiyatını, xalq məsəllərini, hakimanə sözlərini bu qədər cəsarətlə yazıya, bədii ədəbiyyata gətirən iki ədibimiz varsa, biri Haqverdiyevdir. Ona görə də ədibin dili əlvan, söyləmə üsulu şirin, ədası xoş, təsvirləri səlisdir... Yeknəsəklik, yoruculuq Haqverdiyevin hekayələrinə yaddır. Onun ifadə, nağıl, söyləmə üsulu müxtəlif və əlvandır... Xalq danışıq dilinin zənginliklərini, canlı, şirin söz və ifadələri cürətlə yazıya gətirir. Əbdürrəhim bəyi, müəyyən mənada, yeriyən Azərbaycan adlandırmaq olar".
  ***Mir Cəlal***

- "...Haqverdiyevin dramaturji yaradıcılığı tarixində birinci dövr istiqamətverici mənaya malik olmaqla bərabər "Dağılan tifaq", "Bəxtsiz cavan", "Pəri cadu", "Ağa Məhəmməd şah Qacar" kimi əsərlərinin beşiyidir".
  ***Əli Sultanlı***

- "Ə.Haqverdiyev istedadlı aktyor və rejissor kadrları yetişdirmək sahəsində səmərəli fəaliyyət göstərmiş, Azərbaycan aktyorlarının böyük bir dəstəsinin yaxın məsləhətçisi və hamisi olmuşdur. H.Ərəblinski, C.Zeynalov, H.Sarabski, A.M.Şərifzadə, S.Ruhulla və bir çox başqa aktyorların yetişməsi və onların səhnə ulduzları kimi parlamasında Ə.Haqverdiyevin bir rejissor və teatr təşkilatçısı kimi xidmətləri böyükdür. O, çox vaxt pərakəndə halda, ayrı-ayrılıqda fəaliyyət göstərən aktyor qüvvələrini bir yerə toplamağa, onları vahid bir truppada birləşdirməyə çalışırdı. 1901-ci ildə Bakıda həvəskar və qismən peşəkar aktyorlardan ibarət bir dram dəstəsi təşkil etmiş, az sonra məşhur artist C.Zeynalovla birlikdə teatr cəmiyyəti düzəltməyə səy göstərmişdir".
  ***Məmməd Məmmədov, ədəbiyyatşünas-alim***

- "Ə.Haqverdiyev hekayə yazmağa başlarkən yetkin bir dramaturq idi. Bu cəhət onun nəsr sahəsindəki fəaliyyətinə də təsir etməyə bilməzdi. Bu, hər şeydən əvvəl, ədibin hekayələrindəki tiplərin canlı, təbii nitqlərində özünü göstərir. Ədibin hekayələrindəki dialoqlarda artıq söz, əlaqəsiz ifadələr yox dərəcəsindədir... Onun yaratdığı dialoqlar hekayənin təsir gücünü artırır. İki nəfərin söhbəti onların daxili aləmini açır...".
  ***K.Məmmədov, professor***

- "Yüksək mədəniyyət və istedad sahibi yazıçı Haqverdiyev teatrın böyük dostu idi. O, teatrı gözəl bilirdi. Teatr bütün sənət məsələləri haqqında ondan ətraflı məlumat alırdı; onun pyesləri həmişə müvəffəqiyyətlə oynanırdı. O, teatrı sevirdi, teatrda vicdanla işləyirdi; onunla müsahibələr uzun zaman yaddan çıxmırdı. O, dil, söz uğrunda, onun dürüstlüyü uğrunda möhkəm mübarizə aparır və bayağı heç bir şeyə yol vermirdi. O, teatrın, tam mənası ilə, bir əsgəri idi və həmişə realist sənət bayrağını yüksək tuturdu".
  ***Aleksandr Tuqanov, teatr xadimi***

- "Köhnə dudman" bədii keyfiyyətlərinə görə 1920-ci illərdə yazılmış ən yaxşı dramlardan biridir. Əsərin süjeti zəngin, kompozisiyası bitkindir. Surətlərin fərdi xüsusiyyətləri sənətkarlıqla göstərilir. Xarakterlər bütöv və dolğundur. Dramın dili sadə və aydındır. Personajların danışığı təbii olub onların daxili aləmini, ictimai psixologiyasını əks etdirir. Bu məziyyətlərinə görə "Köhnə dudman" XX əsrin birinci yarısı Azərbaycan ədəbiyyatında dram janrının ən yaxşı örnəklərindən sayılır. Təhsin Mütəllimov bu əsəri sovet dövrü Azərbaycan dramaturgiyasında "ən qüvvətli və monumental pyes" hesab edir".
  ***Zaman Əsgərli, professor***

### Realist sənətkar

**Hekayə yaradıcılığının başlanğıcında Ə.Haqverdiyevin nəsri didaktik, lirik-dramatik meyli ilə diqqət çəkirdisə, sonrakı mərhələdə müxtəlif çalarları ilə komizm, satirik əhvali-ruhiyyə qabarıqlaşırdı. Təbii ki, bu meyillər onun hekayə yaradıcılığı boyunca artıb-azaldığı üçün bu "hüdudlandırma" qeyd-şərtsiz xarakter daşımır. Adətən, xarakterlərin, süjetin və süjetlə əlaqədar olaraq qəhrəmanların düşdüyü vəziyyətlərin, portretlərin, nitqin, adların komizmini bir-birindən fərqləndirirlər. Ə.Haqverdiyev hekayələrində bütün bu komponentlərdən istifadə edirdi. Bununla belə, ədibin gülüşü bəzən qeyd olunduğu kimi heç də hər zaman qəzəbli, öldürücü gülüş deyil, əksinə, "balaca adamlar"a yönləndirilmiş mərhəmətli, şəfqətli gülüşdür və daha çox acıma hissi ilə aşılanmışdır. Komik hekayələrinin əsas qəhrəmanı olan balaca adamın həyat tərzinə, gündəlik qayğılarına nüfuz edən ədib onları qeyri-adi situasiyalarda, istisna vəziyyətlərdə "yaxalamaq"dan daha artıq biri digərindən fərqlənməyən günlük həyatında təsvir edir.**



# Əbdürrəhim bəy Haqverdiyevin hekayələrində gülüşün poetikası

Onun gerçəkləri ifadəetmə üsulundakı komizmin işlənmə vasitəsinə uyğun olaraq hekayələrindəki janr xüsusiyyətləri də dəyişir. Ə.Haqverdiyev nəsrində, o cümlədən hekayəçiliyində epizodik təsvirdən həyatın çoxplanlı və müxtəlif xarakterli təsvirinə qədər yol alır.

Əbdürrəhim bəy Haqverdiyevin komik qəhrəmanlarının xarakterindəki psixoloji başlanğıc az əhəmiyyət daşımır, bunu xüsusən portret hekayələrdə daha geniş müşahidə etmək mümkündür. Belə olduğu halda, onun komik təhkiyəsi polifonik xarakter alır - komik, lirik və dramatik (bəzən hətta tragik) başlanğıcları bir-birindən fərqləndirərkən dəqiq konturları cızmaq mümkün olmur, biri digərinə keçərək bir-birini tamamlayır. Ə.Haqverdiyevin gülüşü əksərən dramatikdir, çünki o hadisələr ki, gülüş doğurur, eyni zamanda, həm də acındırır, faciəni dərk etməyə rəvac verir. "Bomba" hekayəsində bu, Kərbəlayi Zalın öz durumunun acınacaqlı olduğunu, özünü yüksək mövqelilər və mövqe sevgisi qarşısında zəif, aciz və cılızlığını dərk etdiyi zaman baş verir.

Gülüş bir haldan başqa hala keçid olduğu üçün onu doğuran hadisənin özü ilə yanaşı, motivi də əhəmiyyətlidir. Kərbəlayi Zalın motivləri başqasına pislik deyil, özünə yaxşılıq etmək, yerini, mövqeyini möhkəmləndirməkdir. Nəticə etibarilə, başqasına nə pisliyi, nə yaxşılığı keçsə də, özünü gülüş hədəfinə çevirmiş olur. Biz onun usta Feyzullaya pislik etməsinə yox, hətta özünə belə, xeyri dəyməməsinə acıyırıq və bu acıma şəfqətli gülüşlə ifadə olunur.

Pristavın xəbərdarlığından ("Əgər belə getsə, bizim bir yerdə qulluq etməyimiz tutmayacaq".) sonra Kərbəlayi Zal fikirli gəzib-dolanır, hətta axşam yeməyi yeməyib yatmağa getsə də, nə illah edirsə, yata bilmir. Çarə axtarır ki, "pensiyəsinin çıxmağına" az vaxt qalmış onu işdən uzaqlaşdırmasınlar. Fikirli halda, küçədə dayanarkən absurd situasiyanın özü gəlib onu tapır: "Gecə yarısından bir xeyli keçmiş Kərbəlayi Zal gördü ki, usta Feyzulla nalbəndin qapısında bir kişi dayandı. Yedəyində də bir at, atın üstündə bir cüt çuval və çuvalın içində bir növ girdə şeylər. At sahibi ilə ev sahibi çuvalları atın üstündən ehmallıca alıb apardılar və sonra atı içəri çəkib qapını bağladılar." Kərbəlayinin ağlını qarışdıran "bu bir növ girdə şeylər" olur. Onun məqsədi usta Feyzullaya böhtan atmaq, onu nə yolla olursa-olsun, həbs etdirib yerini möhkəmlətmək deyil, sadəcə, doğrudan da, gətirilənin bomba olduğuna inanır.

Burada gülüş obyekti Kərbəlayi Zalın düşdüyü komik situasiyadır, onun özü deyil. Çünki Kərbəlayi Zal, əslində, yazıq, bədbəxt adamdır. Bu situasiya digərlərindən fərqləndiyi, gözlənilən effektlə qarşılaşmadığımız üçün gülüş yaradır. Situasiya oxucunun gözləntisinə adekvat deyil, onu aldadır və biz əvvəlcə yaranan duruma, sonra isə bu durumda gülünc vəziyyətə qalan və onun səbəbkarı olan Kərbəlayi Zala gülürük. O özü də durumun qurbanıdır. Çünki Kərbəlayi Zalın "Qanlı küçə" ilə "Zavallı" küçənin kəsişməsində durub fikrə dalması təsadüfi deyil. Bu adlar bir tərəfdə zor tətbiq edən Rusiya zülmünü, digər tərəfdə əzilən, törədilən zülmə düçar olan xalqı simvolizə edir və qorodovoyun bu ikisinin arasında qalması müəllifin bilərəkdən seçdiyi priyomdur. Hekayədəki situasiyanı müəllifin kədəri doğurur.

Tədqiqatçı Vladimir Propp ən əsas gülüş növü olaraq istehzanı görürdü, çünki satiranın nəhəng sahəsi məhz istehzalı gülüş üzərində qurulub. Qeyd etdiyimiz bu istehza, tənə pafosu, satirik ifşa Ə.Haqverdiyevin məhz "Marallarım" silsiləsi üçün səciyyəvidir. Kimdir bu marallar? Müəllif bu sualı belə cavablandırır: "Şükür olsun Allaha, yer üzündə mənim marallarımın hesabı üç yüz milyona çatıb. Gedərsən İrana, Hindistana, Türküstana, Ərəbistana, Buxaraya, Əfqanıstana, İrəvana, Naxçıvana, Qarabağa, Lənkərana, Salyana, Bakıya, Batuma, Dərbəndə, Dağıstana... hər yer mənim marallarım ilə doludur. Gözəl marallarım, göyçək marallarım. Hər biri bir can marallarım, hacı marallarım, kərbəlayi marallarım, məşədi marallarım, molla, rövzəxan, bəy-xan marallarım. Keçəl marallarım, qotur, bitli marallarım. Başları qapazlı, üzləri tüpürcəkli marallarım..."

"Marallar" xeyli geniş ərazini "zəbt edirmiş" və məsələ yalnız bu coğrafi arealın genişliyində deyil. Ə.Haqverdiyevin hekayələrinin cərəyan etdiyi məkan və zaman əsas etibarilə maksimal dərəcədə lokallaşdırılması ilə xarakterikdir. Milli "marallar"ın "paytaxtı" - əsas mərkəzi Dəccəlabaddır - ərazicə uydurma olsa da, ideyaca bünövrəsi, zəmini olan, fiziki mövcudiyyəti gerçək olmasa da, mahiyyətcə reallaşan bir məkandır. Burada o qədər fırıldaq və haqsızlıqlar olur ki, "Dəccal bu şəhərin qarşısında dənizin təkində dustaqdır." - Dəccalın özünü belə dustaq edə bilən, şərin "abad" etdiyi şəhər və onun "marallar"dan ibarət əhalisi toplum olaraq açıq-aydın satiraya məruz qalır. "İnsaniyyət", "mürüvvət", "həmiyyət", "ittihad", "namus", "qeyrət", "mədəniyyət"... və habelə sözlər"in ortalığa gəlməsinə qadağa qoyulan bir məmləkətdir Dəccəlabad. Fantastik məkan olsa da, onun qəhrəmanları bizlərdəndir, aramızdan çıxanlar, yaxud elə biz özümüzük. Bu məqamda Y.Borevin hər cür obyektin kəskin gülüş hədəfinə tuş gəlinməyə "layiq" olmadığı, onun müəyyən estetik xüsusiyyətlərə malik olmasının vacibliyi fikrilə razılaşmaq lazım gəlir. "Marallarım" silsiləsinin, demək olar ki, hər bir hekayəsində müəllifin daha çox istehza və ifşa meyilli satirik gülüşünə şahid oluruq.

Satirada gerçəkliyin əkslikləri qarşı-qarşıya durur, bu üzdən gülüşsüz olsa da, kəsərsiz satira olmaz. Çünki satirikin məqsədi yalnız oxucunu güldürmək olmamalıdır, belə olduğu halda, bu gülüşün mənasız "hırıltı"dan fərqi olmaz. "Tənqid" (1913) hekayəsindəki mühərrir Mirzə Mahmudun məzmunca bir-birini inkar edən iki fərqli rəy yazaraq, eyni tamaşanı əvvəl tənqid edib, sonra tərifləməsi; "Acından təbib"də (1913) çarəsizlikdən yalan danışan və bu yalanı hələ uzun müddət davam etdirməli olan Kərbəlayi Məhəmmədin "tədbir"i; "Həmşəri pasportu"nda (1917) bir təsadüf nəticəsində başqalarının sənədlərini cibinə qoyub Rusiyaya yollanaraq, müxtəlif şəhərlərdə dinini dəyişmək istədiyini dilə gətirib yerli camaatın avamlığından istifadə etməsi... kimi əhvalatların hər biri "marallar"ın əməlləri olaraq satirik gülüşün müxtəlif çalarlarına məruz qalır.

"Pir", "Acından təbib", "Dəccəlabad", "Şəbih" və digərləri kimi hekayələrdə tənqid pafosu yalnız savadsızlıqları üzündən aldananlara deyil, bütövlükdə cəhalətə, haqqını tələb edə biləcək bilgiyə malik olmağa imkan verməyən, yalançı dini ayinlərlə aldatdıqları üçün ayrı-ayrı "dindarlara" yox, ümumən xürafata yönəlikdir. Beləcə, ilk baxışda əhəmiyyətsiz görünən nəsnələrin arxasında milli gerçəkliyin neqativ çalarları çözələnir, ayrı-ayrı obrazlar dövrün, cəmiyyətin qüsurlu ruhunu özündə ümumiləşdirən tiplərə çevrilir.

Sonrakı hekayələr sosial planda mahiyyətcə "Marallarım" silsiləsindən ciddi fərqlənməsə də, bunlarda tədricən gülüşün səciyyəsi dəyişir; daha çox nisgil və kədərə köklənərək hekayə qəhrəmanı və onun ümumiləşdirdiyi cəmiyyət nümayəndələrindən uzaqlaşaraq şəxsin hərəkətlərinin səbəblərinə yönəlik suallar yaradır.

Sənətkarın yaradıcılıq manerasının əsas xüsusiyyətləri yalnız ərsəyə gəlmiş personaj və situasiyalarla bağlı deyil, bütövlükdə bu və ya digər tarixi dönəmin aparıcı tendensiyaları haqqında fikir formalaşdırmağa imkan verir. Ə.Haqverdiyevin bədii nəsrinin xarakterik cəhətləri onun ideya-yaradıcılıq istiqamətinin əsas prinsiplərini müəyyənləşdirir. Hekayələrindəki əhvalat üzərində qurulan süjet tədricən obrazın iç dünyasına nüfuzetmə ilə əvəzlənir. Beləliklə, müəllif müasirlərinin mahiyyətini əks etdirməklə bütövlükdə həmin zamanın ictimai ovqatını, sosial əhəmiyyətli, dolayısı ilə həm də siyasi proseslərin mahiyyətini ifadə edir.

***Mətanət VAHİD, filologiya üzrə fəlsəfə doktoru***

### İlk dram əsəri

# "Dağılan tifaq"

**Ə.Haqverdiyev orijinal bədii yaradıcılıq sahəsində ilk addımlarını Peterburqda atmış, 1892-ci ilin fevralında birinci dəfə "Yeyərsən qaz ətini, görərsən ləzzətini" adlı komediyasını, 1896-cı ildə isə Azərbaycan dramaturgiyasının incilərindən olan məşhur "Dağılan tifaq" faciəsini qələmə almışdır. Hər iki əsərin mövzusu real həyatdan, real hadisələrdən, dramaturqun sosial-mənəvi və psixoloji aləminə dərindən bələd olduğu mülkədar yaşayış tərzindən götürülmüş, canlı müşahidələr əsasında yazılmışdır. Əsər ilk dəfə Peterburqda ədəbi məclisdə oxunmuş və iştirakçılar tərəfindən hərarətlə qarşılanmışdır.**

Görkəmli tədqiqatçıların fikrincə, "Dağılan tifaq" Azərbaycan klassik realist dramaturgiyasının ən dəyərli nümunələrindən sayılır və Haqverdiyevə dramaturq şöhrəti qazandıran bu məşhur əsərin yaranmasında ədibin hələ Şuşada ikən, içərisində dolaşdığı mühiti ətraflı müşahidə etməsi böyük rol oynamışdır.



Tifaqların, ocaqların dağılması ictimai-əxlaqi tənəzzülə məruz qalmış mülkədarlığın öz təbiətindən doğurdu. Pyesdə müəllif, Nəcəf bəy və onun "yemək və içmək" dostu olan bəylərin nüfuzlarının azaldığını, fəaliyyətlərinin get-gedə zəiflədiyini, mübarizə meydanından sıxışdırılıb çıxarıldıqlarını göstərmişdir.

Burada eyni zamanda, yaranmaqda olan yeni ictimai qüvvələri təmsil edən Məşədi Cəfər və Cavad kimi tacirlərin surətləri yaradılmışdır. Artıq elə bir dövr gəlmişdi ki, mülkədarlıq cəmiyyətin təzə meyilləri, inkişafı qarşısında duruş gətirə bilmir, dağılırdı. Nəcəf bəyin tərcümeyi-halı Azərbaycan mülkədarlığının keçirdiyi yola uyğundur. Onun ailəyə, qadına, oğluna münasibəti dözülməzdir. Oğlu Süleymanın tərbiyəsiz böyüməsi, atasının yolu ilə getməsi obrazın məhvinə səbəb olur.

"Dağılan tifaq" faciəsinin əsas surətlərindən olan Sona xanımın simasında müəllif, təkcə bəy arvadlarının deyil, feodal-patriarxal cəmiyyətdə yaşayan hüquqsuz qadınların ümumiləşmiş surətini yaratmışdır. Ədib onun dililə öz humanist arzularını, istəklərini, qüvvətli insanpərvər meyillərini ifadə etmişdir. Sona xanım öz düşüncə və arzuları ilə Nəcəf bəylərdən çox üstündür. Əsərdə yazıçının xalqa münasibəti də öz əksini tapmışdır.

"Dağılan tifaq" kəskin dramatik konfliktə malik faciədir və sənət əsəri kimi ustalıqla yazılmışdır. Konflikt elə məharətlə qurulmuşdur ki, əsas surətlər pərdədən-pərdəyə keçdikcə dolğunlaşır, öz səciyyəvi xüsusiyyətlərini aşkara çıxarırlar. Əsas qəhrəman və onun ailəsi get-gedə fəlakətə yaxınlaşır və nəhayət, pyes faciəli, acınacaqlı bir sonluqla bitir.

Dramaturq əsərdə əsas surətlərlə yanaşı, yardımçı surətlərin də xaraktercə tam olmalarına diqqət yetirmişdir. Pyesin dili təbiidir, səlis və aydındır. Dil məsələsində dramaturq realizmə sadiq qalmışdır.

"Dağılan tifaq" Azərbaycan səhnəsində müvəffəqiyyətlə tamaşaya qoyulan pyeslərdəndir. Bunun başlıca səbəblərindən biri, onun geniş bir dövrü əhatə edən məzmunu ilə yanaşı, həm də sənətkarlıq cəhətdən mükəmməlliyi ilə izah olunmasıdır.

***"Azərbaycan"***

### Hekayə

# Ayın şahidliyi

*Ey gahi qədim kimi xəmidə,*
*Gahi pür olan misali-didə.*

***Füzuli***

Yay fəsli təzə daxil olmuşdu. Şəhərin havasının qəlizliyindən, tozundan, zəhmətinin kəsrətindən bir qədər asudalaşmaq və yorulmuş bədəni köhnə halətinə gətirmək üçün kəndə rəvan oldum. Qəndablı kəndinin havası, ələlxüsus gecələri cümləyə məlumdur. Bu kəndin aydınlıq gecələri nə qələmlə və nə dillə vəsfə gələn deyil və məni kəndə çəkən ancaq onun gecələrinin səfası idi.

Gözəl gecələrin birində bir evin qabağında bir taxt qoyub bir tərəfində mən və bir tərəfində, imperator Birinci Nikolayın əsrində xidmət etmiş əmim əyləşib istirahətə məşğul idik. Həqiqət nəsimin əsməyi, çəyirtkələrin qanadlarının sızıltısı və yaxın arxın qurbağalarının nəğmələri hamısı bir-birinə qarışıb, ruha sükunət verən qərib bir ahəngitəbii əmələ gətirmişdilər. Düzlərdə əkilmiş taxıl nəsimin qabağında o yan-bu yana yatıb dərya tək mövclənirdi və dolu sünbüllər məzlum-məzlum başlarını aşağı salıb, qətlinə fərman verilmiş müqəssirlər tək cəlladları olan biçinçilərə müntəzir idilər. Tək-tək boş sünbüllər başlarını yuxarı qalxızıb qürurla sairlərinə baxırdılar. Amma səhv edirdilər; onlar da cəllad əlindən qurtara bilməyəcəkdilər. Ancaq dolu baş, boş başdan artıq kəsiləcəkdi. Taxılın qurtardığı yerdə xırda çayın şırıltısı bilavasitə qulağa gəlirdi və çayın kənarında cərgə ilə boy atmış ərərləri guya sünbüllər üstündə qarovul qoymuşdular.

Kənd yatmışdı. Nə xoruzlardan, nə itlərdən və nə sair heyvandan bir səs çıxmırdı. Qəflətən kəndin ayağında bir xoruz banladı. O saat fikrimə gəldi ki, yəqin sabah bu xoruzun bivaxt banlamağına görə başı cəllad əlində gedəcək: əlbəttə, bir yerdə ki camaat hamısı yuxuya məşğuldur, küy qalxızıb səs salanın başı gərək kəsilsin!

Bədirlənmiş ay qalxıb göyün bir qatında durub bu övzaya tamaşa edirdi. Qoca əmim birdən dizi üstə qalxıb papağını gözlərinin üstünə endirdi. O saat bildim ki, keçmiş günləri yadına düşüb, bir qəribə hekayət söyləyəcək. Əmim əvvəl bir dərin ah çəkib dedi:

- Dünyanın xilqətindən indiyədək bu gördüyümüz ay yerin ətrafına dolanır, neçə davalar, neçə min hadisələrə şahid olub, neçə min böyük şəxslər əsrini görüb; nə olardı bunun dili olmasaydı! Axı, nə gözəl söhbətlər edərdi! Şəhadət dedim, bir keyfiyyət yadıma düşdü, qulaq ver nağıl edim:

Qırx il ya daha artıq bundan əqdəm mənim xidmət edən vaxtımda bir belə gözəl gecədə Səlman adlı bir şəxs bir qədər çit malı öz atına yüklüyüb bu kənddən o biri kəndə ticarət üçün gedərkən yolu bir dərədən düşdü. Dərənin ortasında bir müsəlləh şəxs Səlmanın qabağını kəsib buyurdu atdan düşsün. Binəva Səlman ayaqları titrəyə-titrəyə atdan aşağı endi. Quldur onun atını yükü ilə əlindən alıb dedi: İndi özün də vaxtına hazır ol, çünki axır nəfəsin gərək burada çata. Mən səni buradan salamat buraxmayacağam. Çünki kənd yaxındır, gedib xəbər edərsən, mənim dalımca gəlib məni tutarlar.

Səlmanın bədəninə lərzə düşdü, dedi: "Ey şəxs! Hər kimsən mən səni tanımıram, amma görürəm müsəlmansan, müsəlmanda nə qədər olsa bir mərdanə sifət olar. Mən əlsiz-ayaqsız çərçinin taqsırı nədir ki, öldürmək istəyirsən? Olan malımı əlimdən aldın, məgər mənim canımdan da sən bir fayda götürəcəksən? Səni and verirəm bizi yaradan bir Allaha, sən gəl mənim canıma qəsd etmə, mən yazıq kişiyəm. Yeddi nəfər balaca uşaqların atasıyam, altı aydır arvadım ölüb, mən o uşaqlara həm atalıq, həm analıq edirəm, əgər mən də ölsəm, bil ki, uşaqlar hamısı acından qırılasıdırlar. Sən gəl Allah xatirəsi üçün mənim balaca yetimlərimi atasız qoyma. Rəhm, insan ürəyində gözəl sifətdir: sənin mənim balalarıma rəhmin gəlsə, xudavəndi-aləm də səni yaddan çıxartmaz və mən də and içirəm ki, bu malın hamısını sənə halal edim və heç bir yerdə də danışmayım".

Quldura Səlmanın sözləri əsər etmədi. Dedi: "Kişi, nahaq yerə yetim-filan ortaya gətirmə, mənim sözüm sözdür, vaxtına hazır ol!"

Səlman dedi: "Belə olan surətdə izn ver iki rükət namaz qılım, ondan sonra səni tapşırım öz insafına". Quldur cavab verdi ki, namaza mane deyiləm, ancaq tez qurtar, gedəcəyəm.

Səlman İki rükət namaz qılıb sonra əllərini qaziyəlhacat dərgahına qalxızıb dedi: "Xudaya, mənim bu nahaq qanımı yerdə qoyma, pərvərdigara, mənim bir kəsim yoxdur, sən özün mənim yetim balalarıma pərəstar ol!" Sonra gözünü Aya döndərib dedi: "Ey dünyanı illərlə seyr edən Ay! Şahid ol ki, sənin gözünün qabağında bir fəqir əlsiz-ayaqsız sövdəgəri nahaq yerə öldürdülər. Güzarın bizim evə düşsə, öz işığını salginən mənim yetimlərimin üstünə və deyinən ki, yazıq balalar, atanız uzaq səfərə gedib, ona müntəzir olmayın. Gedin küçələrdə, qapılarda özünüzə gün ruzusu qazanın! Ey dağlar, daşlar, göllər, axan sular, əsən yellər, burada sizdən savayı bir kəs yoxdur, siz də şahid olun ki, bu yerdə dünya malından ötrü bir şəxsi öldürüb, onun yeddi balasını yetim qoydular".

Sonra kəlmeyi-şəhadətini deyib üzün quldura tutub dedi: "Qardaş, imdi ixtiyar sahibisən, əgər məni öldürmək fikrindən daşınmayıbsan ki, bismillah, sözüm yoxdur, amma bil ki, mənim qanımı Allah yerdə qoymayacaq".

Quldur heç bir söz deməyib, tüfəngini düzəldib Səlman kişinin ürəyindən bir güllə vurub onu qətlə yetirdi və sonra onun atını, çitini, libasını götürüb yola düşdü.

Sübh kənd əhalisi Səlmanın meyitini tapıb, bir ata yükləyib dəfn üçün kəndə apardılar. Səlmanın balaca yetimlərinin, ələlxüsus on yaşında bir qızının nalə və şivənini heç bir qələm yazmağa qadir deyil. Hər bir oxucu özü yeddi nəfər yetim qalmış xırda balaların halətini təsəvvürünə gətirə bilər.

Səlmanın ölümündən beş-altı ay keçmiş, onun cavan qardaşı Süleyman bir qan üstündə müttəhim olub dustaqxanaya salındı. Bu oğlan bisahib və qan tərəfi zorlu olmağına görə göstərilən şahidlər gedib divanda yalandan and içib qanı cavan Süleymanın boynunda qoydular. Bu binəvaya neçə il katorqa kəsildi.

Bir neçə vaxtdan sonra Süleyman mümkün tapıb dustaqxanadan qaçıb, quldurlar dəstəsinə qoşuldu və bu dəstənin də başçısı haman onun qardaşı Səlmanın qatili quldur idi. Süleyman öz qardaşının qatili ilə neçə müddət yoldaşlıq etdi.

İttifaqən bir gecə bu iki yoldaşın yolu haman Səlman ölən dərədən düşdü. Dərənin içində quldur çox ucadan güldü. Süleyman onun belə gülməyinin səbəbini soruşdu. Quldur cavab verdi ki, vallah, gülməyimə bir elə artıq səbəb yoxdur, ancaq bir keçmiş əhvalat yadıma düşdü, ona görə güldüm. Süleyman təkidlə soruşandan sonra quldur cavab verdi ki, neçə il bundan əqdəm burada bir çərçi öldürdüm və o çərçi ölən vaxt Ayı, ulduzu, daşı, torpağı özünə şahid qayırdı. İndi yadıma düşüb, o çərçinin axmaqlığına gülürəm.

Süleyman bu sözü eşidən kimi təəccüblə barmağını dişləyib dedi: "Bəli, dünyada belə qəribə işlər çox ittifaq düşər".

Yoldaşlar dərədən çıxdılar düzə. Bir az keçəndən sonra Süleyman atının irəşini düzəltmək bəhanəsi ilə düşüb geridə qaldı və quldur getdi qabağa. Süleyman quldura bir az ara verib, tüfəngi düzəldib onu kürəyinin ortasından vurub, öz qardaşının qanını aldı...

Əmim nağılını qurtarıb dedi: "Bala, Allah heç nahaq qanı yerdə qoymaz və Ay, ulduz, daşlar, ağaclar Allahın hökmü ilə bu növ şəhadət edə bilərlər".

Qocanın nağılı tamam oldu, amma onun əvvəl sualı heç mənin başımdan çıxmadı. Öz ürəyimdə bir ucdan bu sualı verirdim: "Nə üçün bu göydəki Ay danışmır? Nə üçün onun dili yoxdur? Ah... Nə olaydı bu Ay mənimlə bir az söhbət edə idi!" Bu xəyalla məni yuxu tutub yatdım.

Gecə röyada gördüm: Ay yerindən hərəkət edib mənə tərəf enir, dedim: "Məramıma çatdım, yəqin mənimlə söhbət edəcəkdir". Həqiqət, Ay gəlib bərabərimdə durub dedi: "Doğrudur, mən dünyanın xilqətindən yerin ətrafına dolanıram. Mən Həzrət Adəmin Həvva ilə bərabər behiştdən ixrac olunmaqlarını görmüşəm, mən Həzrət Musanın Turda minacatlarını eşitmişəm, mən Həzrət Yusifin quyu dibində üstünə işıq salmışam və Həzrət Yəqubun gecələr naləsini və "oğul vay" sədasını eşitmişəm. Mənim şəfəqim Misir fironlarının, Roma qeysərlərinin, Kəyaniyan və Sasaniyan şahənşahlarının, Bəni-Üməyyə, Bəni-Əbbasiyyə xüləfasının qəsrlərinə, turan və türk xalqlarının qəsrlərinə düşübdür. Mən islamın tərəqqi və tənəzzülünün şahidi olmuşam. Mən o gecənin şahidiyəm ki, peyğəmbər axirəzzaman bir neçə nəfər əshabi ilə Məkkənin kənarında bir dağın başında durub deyirdi: "Mənim yoldaşlarım, mənim əzizlərim, Məkkə əhli bizə dünyanı təng edib, bunlar bizi öldürüb, dini-mübini yox edəcək. Məsləhət budur ki, burada bölünüb İki dəstə olaq, yarımız Həbəşə tərəf, yarımız Yəsribə tərəf getsin. Əgər dəstənin biri tələf olsa, bəlkə o birisi salamat gedib, bir yana çıxıb dini-islami nəşr edə. Və mən o gecənin şahidiyəm ki, meydani-Kərbəlada peyğəmbər övladı, sübhədək ənvari-qüdsiyyə içində, din yolunda şəhadətə hazırlanırdılar... İslamın yolunda mən neçə davalar, neçə cahadlar görmüşəm, odur ki, müsəlmanlar məni özlərinə bir əlaməti-məxsusə ittixaz etmişlər. Amma indi bu millətin əhvalına nəzər etdikcə deyirəm ki, lal olub danışmamaq məsləhətdir. Mənim üzümdə siz bir qara görüb onu ləkə hesab edirsiniz. Xeyr, o, qara ləkə deyil, bəlkə mənim ahımın tüstüsüdür ki, əqvami-islamiyyənin hər cəhətdən cəmi millətdən geri qalmağını görüb ciyərimdən çıxardıram!.."

Bu halda xoruzlar banlayıb məni yuxudan oyatdılar. Baxdım gördüm sübhə az qalıb və Ay da məğrib tərəfə yaxınlaşıb, batmağa hazırlaşır. Yuxudan ayılmağıma artıq heyf edib dedim: nə olardı bir həftə yuxu yatıb Ayla söhbət edib eşitdiyimi camaata bəyan edəydim.

Ax, nə gözəl olardı, bu Ay danışsaydı!..

***Əbdürrəhim bəy Haqverdiyev, 1906-cı il***

Replika

# Çəkilin, moped dönər aparır

## Bu ikitəkərli nəqliyyat vasitələri son vaxtlar yolların əsl başağrısına çevrilib

Belə götürəndə, pandemiyanın sərt və gözlənilməz qaydalarına artıq öyrəşmişik. Zarafat deyil, demək olar, yarım ildir COVID-19-la "yaxınlıq" edirik.

Deyirlər, tibbi maska geyim aksesuarlarınızdan biri olmalıdır - paltarımıza uyğun, yaxud iş yerimizin loqosu həkk edilən maska taxırıq. Məsləhət bilirlər, əllərinizi tez-tez yuyun, dezinfeksiya edin - artıq bu səbəbdən əksəriyyətimizin əllərinin dərisi qabıq qoyub. Tapşırırlar bir-birinizdən sosial (daha doğrusu, fiziki) məsafə saxlayın - mümkün qədər, imkan daxilində bir-birimizə (adət etdiyimiz kimi) arxa çeviririk. Bir sözlə, pandemiya dünyanın müxtəlif adətlərə, fərqli həyat tərzlərinə, ziddiyyətli mentalitetlərə malik xalqlarını koronavirusun çərçivəsinə salaraq eyni tərzdə yaşamağa məcbur edib.

Amma bu zəhrimara qalmış koronavirus bizə təkcə sərt və yeknəsəq çərçivələr "bəxş etməyib", eyni zamanda özümüzü özümüzə tanıtdırıb. Və bu tanıtım nəticəsində bilmişik ki, qaydalara nə qədər məhəl qoymaq qabiliyyətimiz var. Öyrənmişik ki, səbrimiz hansı həddəcəndir, imkanlarımıza adekvatdırmı. Xəbər tutmuşuq ki, özümüz bir yana, doğmalara, ümumiyyətlə, ətrafdakılara münasibətdə nə dərəcədə məsuliyyətliyik. Və nəhayət, düşünmüşük ki, tibbi maska, sosial məsafə və dezinfeksiya tələblərinə nəyə görə əməl etməliyik - virusdan, yoxsa cərimədən qorunmaq üçün?

Söz ki, cərimədən düşdü, onun tərbiyəvi rolunu, "imansız" kimi "dinsiz"in öhdəsindən gəlmək qabiliyyətini qeyd etməyə bilmərik. O yerdə ki, şüur, mənəviyyat, tərbiyə yetərincə deyil, cərimə kara gəlir! Həm də təkcə kara gəlmir, sadaladığımız çatmayan keyfiyyətləri formalaşdırır. İstər xaric, istərsə də daxildə buna aid çoxsaylı misallar çəkə bilərik. Lakin biz bunun əvəzinə lazım olan bəzi sahələrdə cərimələr və digər inzibati cəzaların gözə dəymədiyini misal çəkmək istərdik.

Məlumdur ki, pandemiyadan əvvəl də iaşə müəssisələrinin bir çoxu ünvanaçatdırma xidməti ilə məşğul olurdu. Ancaq COVID-19 üzündən kafe və restoranlarda yerində xidmət qadağan edildiyi üçün onlar kütləvi surətdə sifarişi ünvana çatdırmaqla məşğul olmağa başladılar. Çox yaxşı, buna kim nə deyə bilər ki?! Belə xidmət əhali üçün də, iaşə müəssisəsi üçün də əl verir. Bizlər yemək hazırlamaq kimi qayğıdan azad olur, kafe və restoranlar isə müəyyən qədər pandemiya qadağalarının ziyanını qarşılayır, az sayda olsa da, iş yerlərini qoruyurlar.

Axır ki, gəlib çatdıq əsas mətləbə. O yerə ki, avtomobilləri olanlar üçün bu, mətləbdən daha çox problemdir, özü də təhlükəli problem. Söhbətin qeyd etdiyimiz iaşə müəssisələrinin ünvanaçatdırma xidmətini yerinə yetirən yüngül motosiklet, yaxud mopedlərin küçə və prospektlərdə çıxardığı oyunlardan getdiyini yəqin ki, anladınız. Bəli, pandemiya başlayandan bəri onlar gecə-gündüz təkcə küçələrdə yox, təkərləri dəydiyi hər yerdə ölüm saçır - nə yol hərəkəti qaydalarına əməl edirlər, nə də piyadalara məhəl qoyurlar. İstədikləri vaxt yolda şütüyən, istədikləri zaman səkiyə dırmaşan, bəzən də hətta zolaqlı piyada keçidlərində görünən bu moped və motosikletlər bəzən heç işıqfora da baxmırlar. Onlar paytaxtın nəqliyyat vasitələri ilə dolu küçələrində özlərini elə aparırlar ki, heç ölüm ayağında olan xəstəni əməliyyata aparan ambulans, yaxud hadisə yerinə tələsən yanğınsöndürən maşın o hərəkəti etmir.

Bir yaxın tanışımız var. Deyir ki, bu günlər işıqforda dayandığı yerdə arxadan səs eşidib. Düşüb görüb ki, "dönərdaşıyan" bir moped arxadan onun avtomobilinə çırpılıb. Sürücü bir, mopedi isə başqa tərəfdə yolun ortasındadır. Məlum olub ki, işıqforun qırmızı işığı yandığı üçün hərəkətini səki ilə davam etmək istəyən moped sürücüsü nə özünün, nə də texnikasının imkanlarını hesablaya bilib, əvvəl bardürə, sonra da dayanmış maşına dəyərək qəza törədib.

Amma nə olsun, onlara "gözün üstə qaşın var", "dayan, etmə, belə olmaz" deyən varmı? Azdırmı yollarda bu cür moped və motosikletlərin, ruslar demiş, "naqlı" hərəkətlərindən ziyan çəkən sürücülər? Gözlərindən, radar və kameralarından heç bir qayda pozuntusu faktı qaçmayan DYP görəsən belə hallara münasibətdə niyə "humanistlik" nümayiş etdirir?! Axı, onlar da bütün sürücülər kimi eyni hüquqlu və eyni məsuliyyətli hərəkət iştirakçısıdırlar.

Lakin yox, deyəsən, hüquq və məsuliyyət məsələsində yanılırıq. Əks halda bu mopedlərin dövlət qeydiyyat nömrələri, onları idarə edənlərinsə müvafiq kateqoriyalı sürücülük vəsiqələri olardı. Heç cür anlamaq və heç yerə yozmaq olmur ki, ilin-günün bu vaxtında sürücü vəsiqəsiz və dövlət qeydiyyat nömrəsiz nəqliyyat vasitəsini necə idarə edirlər, özü də "n" sayda yol hərəkəti qaydasını poza-poza... Vallah, təəccüb olunası işdir. Təsəvvür edin, başına kaska qoyduğundan sifəti görünməyən biri nömrəsiz və deməli, qeydiyyatsız mopedlə ciddi bir qəza törədib, yaxud ona səbəb olub aradan çıxır. İndi gəl onu tap görüm, necə tapırsan. Mümkün olası iş deyil!

Bəs, mümkün olan nədir? Təbii ki, bu işdə qanunlar çərçivəsində qayda yaratmaq, yəni sifarişi çatdırma ilə məşğul olan nəqliyyat vasitələrinin hamısını qeydiyyata almaq, onları idarə edənlərin buna hüquqları olub-olmamasını yoxlamaq, ən əsası, belə xidmət göstərən ictimai iaşə obyektlərinin sahiblərinə qarşı sözügedən sahədə tələbləri artırmaq və bir də, yol hərəkəti iştirakçıları kimi moped və motosikletləri inzibati cəzadan kənarda qoymamaq!

Yoxsa, gündən-günə sayı artan bu ikitəkərli nəqliyyat vasitələri cəzasızlıq üzündən yolların başağrısına çevrilməkdə davam edəcək.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

4 aylıq
41,60 (qırx bir manat altmış qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

1 aylıq
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Taxıl sahələrindən bu il 115 min 649 ton məhsul tədarük olunub





Muxtar respublikada taxıl biçini başa çatıb. Bu il taxıl sahələrindən 115 min 649 ton məhsul tədarük olunub ki, bu da 2019-cu ilin göstəricisi ilə müqayisədə 12 min 665 ton və yaxud 12,3 faiz çoxdur. Yığılan məhsulun 83 min 824 tonu buğda, 31 min 825 tonu isə arpadır. Məhsuldarlıq orta hesabla hər hektardan 31,4 sentner olub ki, bu da ötən illə müqayisədə 1,6 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, görülmüş tədbirlərin nəticəsi olaraq 2020-ci ilin məhsulu üçün muxtar respublikada 63 min 405 hektar sahədə əkin aparılıb, bunun da 36 min 879 hektarını və ya 58,2 faizini taxıl sahəsi təşkil edib. 2019-cu illə müqayisədə taxıl əkini sahəsi 3 min 571 hektar artıb.

Taxıl əkini sahəsinin 26 min 293 hektarında buğda, 10 min 586 hektarında isə arpa əkilib. Sahələrin 4 min 865 hektarı və yaxud 13,2 faizi Şərur, 11 min 767 hektarı və yaxud 31,9 faizi Babək, 1804 hektarı və yaxud 4,9 faizi Ordubad, 7 min 589 hektarı və yaxud 20,6 faizi Culfa, 5 min 906 hektarı və yaxud 16 faizi Kəngərli, 1563 hektarı və yaxud 4,2 faizi Şahbuz, 2 min 357 hektarı və yaxud 6,4 faizi Sədərək rayonlarının, 1028 hektarı və yaxud 2,8 faizi isə Naxçıvan şəhərinin payına düşüb.

Əldə olunan məhsulun 19 min 185 tonu və ya 16,6 faizi Şərur, 37 min 702 tonu və ya 32,6 faizi Babək, 5 min 135 tonu və ya 4,5 faizi Ordubad, 20 min 1 tonu və ya 17,3 faizi Culfa, 17 min 707 tonu və ya 15,3 faizi Kəngərli, 4 min 314 tonu və ya 3,7 faizi Şahbuz, 8 min 591 tonu və ya 7,4 faizi Sədərək rayonlarının, 3 min 14 tonu və ya 2,6 faizi isə Naxçıvan şəhərinin payına düşüb.

Tədarük olunan buğdanın bir kiloqramının cari ildə 38, arpanın isə 35 qəpikdən mərkəzləşmiş qaydada satın alınması taxıl əkininə və onun vaxtında itkisiz yığılmasına marağı daha da artırıb.

Muxtar respublikada məhsul istehsalçılarının texnika ilə təmin olunması məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 177 ədədi 2020-ci ilin yanvar-iyul aylarında olmaqla, ümumilikdə 2 min 916 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilib. Cari ilin yanvar-iyul aylarında 178 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilib, 10 ədədi nağd yolla satılıb.

# Qazaxda abadlıq və yenidənqurma işləri bir an belə dayanmır

Son illər dövlət başçısının rəhbərliyi altında regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının uğurlu icrası nəticəsində respublikamızın digər bölgələrində olduğu kimi, Qazax rayonunda da yenidənqurma və abadlıq işləri sürətlə davam etdirilir. İndi rayonun elə bir ərazisi yoxdur ki, ora tikinti meydançasını xatırlatmasın.







Artıq xeyli vaxtdır ki "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Qazaxda şəhərin içməli su və kanalizasiya sistemi yenidən qurulur. Xətlərin çəkilişi başa çatdırılmış küçələrdə asfaltlanma ilə yanaşı, abadlıq işləri də görülür. Həyata keçirilən işlər sayəsində yeni asfalt salınan küçələrin, "Abad məhəllə"lərin sayı durmadan artır.

Molla Pənah Vaqif, Səməd Vurğun, Azadlıq, Zeynalabdin Tağıyev, Murtuz Carçıyev, Əminə Dilbazi, Hüseyn Arif küçələrində abadlıq işləri başa çatdırılmışdır. Şəhərdə yeni asfalt döşənəcək Əliağa Şıxlinski küçəsində görülən işlər də deməyə əsas verir ki, quruculuq işləri bundan sonra da uğurla davam etdiriləcəkdir.

Şəhərdə küçələrlə yanaşı, çoxmənzilli yaşayış binalarının həyətlərində də yenidənqurma işləri aparılaraq "Abad məhəllə" kimi bina sakinlərinin ixtiyarına verilir. Nəriman Nərimanov yaşayış massivində yerləşən binaların həyətində görülən işlər bunun əyani sübutudur. Hazırda su-kanalizasiya sisteminin çəkilişi yekunlaşan Heydər Əliyev prospektində yerləşən üç, dörd və beşmərtəbəli, Azadlıq küçəsində yerləşən beşmərtəbəli, Şəhidlər xiyabanı küçəsində yerləşən hər biri beşmərtəbəli olan iki binada, Bağanıs Ayrım kəndindən məcburi köçkün olan sakinlərin yaşadıqları Ş.Xiyabanı küçəsində, eləcə də şəhərdəki 25 saylı çoxmənzilli yaşayış binasının həyətində aparılan abadlıq işləri göstərir ki, şəhərdə "Abad məhəllə"lərin sayı durmadan artır.

Rayon rəhbərliyi istər su və kanalizasiya sisteminin çəkilişini, istərsə də yenidənqurma işlərini daim diqqət mərkəzində saxlayır. Belə ki, rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov tez-tez abadlıq-quruculuq işləri aparılan ərazilərdə mövcud vəziyyətlə maraqlanır. Görülən işlərlə yerində tanış olur, hər bir işin keyfiyyətlə görülməsi üçün tapşırıqlar verir.

Prezident İlham Əliyevin qayğısı sayəsində bu gün böyük tikinti meydançasını xatırladan Qazaxda bütün sahələrlə yanaşı, körpələrin sağlam böyüməsi, yüksək şəraiti olan uşaq bağçalarında tərbiyə olunması istiqamətində də işlər həyata keçirilir. Bu sahənin diqqət mərkəzində saxlanmasının nəticəsidir ki, rayonda fəaliyyət göstərən 25 körpələr evi-uşaq bağçasının 20-si müasir tələblərə cavab verən səviyyədə əsaslı şəkildə təmir edilmiş və lazımi inventarlarla təmin olunmuşdur. Hazırda Kosalar və Daş Salahlı kəndlərindəki körpələr evi-uşaq bağçalarının yenidən qurulması da sürətlə davam etdirilir.

Qazaxda həyata keçirilən tikinti-quruculuq işlərini yüksək qiymətləndirən rayon sakinləri həyata keçirilən bu işlərə görə dövlət başçısına dərin minnətdarlıqlarını bildirirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## BMT TŞ İranla bağlı qətnaməni rədd etdi

Dünən Beynəlxalq Millətlər Təşkilatının Təhlükəsizlik Şurası İranla bağlı silah embarqosunun uzadılmasına dair qətnaməni rədd edib. Bu barədə ABŞ-n Dövlət katibi Mayk Pompeo bildirib.

Pompeo qeyd edib ki, "BMT TŞ beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsinə cavabdeh olsa da, bu gün əsas missiyasını yerinə yetirə bilməyib".

"Şura İran üzrə silah embarqosunun uzadılmasına dair qətnaməni rədd edib. Onlar dünyada terrorizmin əsas sponsoruna on ildən çox müddətdə ilk dəfə olaraq BMT-nin məhdudiyyətləri olmadan adi silahları satmağa və almağa imkan veriblər. Bu bağışlanmazdır", - deyə Pompeo vurğulayıb. Onun sözlərinə görə, Təhlükəsizlik Şurası Yaxın Şərqin bir sıra ölkələrinin silah embarqosunun uzadılmasına dair çağırışlarına məhəl qoymayıb.

"Bu ölkələr bilir ki, silah embarqosunun aradan qaldırılmasından sonra İran regionda daha böyük xaos və dağıntılar yaratmağa başlayacaq. Lakin BMT TŞ buna göz yumdu. ABŞ İrana silah satışına mane olmaq işini davam etdirəcək. Biz çalışacağıq ki, teokratik terror rejimi Avropaya, Yaxın Şərqə və digər regionlara təhlükə yaradan silahları sərbəst ala və sata bilməsin", - deyə Pompeo bildirib.

## Beyrutdakı partlayışda iki kanadalı ölüb

Livanın paytaxtı Beyrutda baş vermiş partlayış nəticəsində 2 Kanada vətəndaşı həlak olub. Bu barədə TASS agentliyi xəbər verir.

Bunu Kanadanın Baş Naziri Castin Trüdo təsdiqləyib. O, partlayışda ölənlərin yaxınlarına başsağlığı verib. Baş nazir bildirib ki, kanadalılara Beyrutda lazımi yardımın göstərilməsi üçün Livana xüsusi qrup göndərilib.

Bundan əlavə, C.Trüdo Kanadada müvəqqəti yaşayan Livan vətəndaşlarına partlayışa görə evlərinə qayıda bilməyəcəkləri təqdirdə ölkədə qalma müddətinin uzadılmasına icazə veriləcəyini deyib.

Xatırladaq ki, daha əvvəl Castin Trüdo Kanadanın Livana 22,5 milyon dollar məbləğində yardım edəcəyini bildirmişdi.

## Somalidə "əş-Şabab" terrorçularının əsirliyindən 33 uşaq xilas edildi

Somali ordusu Aşağı Şabelle əyalətində "əş-Şabab" terrorçularının əsirliyindən 33 uşağı azad edib.

Əməliyyat zamanı qruplaşmanın dörd yaraqlısı da zərərsizləşdirilib.

Somali hökumətinin mətbuat katibi İsmayıl Muxtar Oronjo "Anadolu" agentliyinə bildirib ki, terrorçular uşaqları oğurlayıb və "onların beyinlərini yumağa"çalışıblar.

2004-cü ildə Somalidə yaradılmış "əş-Şabab" təşkilatı "əl-Qaidə" terrorçularına sadiqliyə and içib. Cinayətkar təşkilat Afrika ölkəsinin cənubunda bir sıra yaşayış məntəqələrinə nəzarət edir.

## Dünyada koronavirusa yoluxanların sayı 21 milyonu ötdü

Dünyada 21 374 002 nəfər yeni növ koronavirusa yoluxub. TASS agentliyinin verdiyi xəbərə görə, bunu beynəlxalq təşkilatların, federal və yerli hakimiyyət orqanlarının məlumatları əsasında hesablamalar aparan ABŞ-ın Cons Hopkins Universiteti bildirib.

Məlumata əsasən, koronavirusa yoluxanlardan 14 160 946 nəfəri sağalıb, 763 745 nəfəri ölüb.

Bildirilir ki, ən çox yoluxma halları ABŞ-da (5 476 266 nəfər), Braziliyada (3 278 895 nəfər) və Hindistanda (2 530 490 nəfər) qeydə alınıb.

## Minskdə tutulan 32 rusiyalı Moskvaya təhvil verildi

Belarusda saxlanılan 33 Rusiya vətəndaşından 32-i ölkəsinə qaytarılıb. Bu barədə ölkənin Baş Prokurorluğunun məlumatına istinadən "RİA Novosti" agentliyi xəbər verir.

Məlumatda bildirilir ki, tutulanlardan birinin Rusiya ilə yanaşı, Belarus vətəndaşlığı da olduğundan həmin şəxs respublikada saxlanılıb.

Baş Prokurorluq geri qaytarılma prosedurunun beynəlxalq hüquqa və iki ölkənin qanunlarına uyğun olduğunu qeyd edib.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7274
Sifariş 1915
Qiyməti 40 qəpik